

**Azərbaycanın maddi-mədəni irsinə qarşı erməni vandalizmi**

5

# “Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır”



2

Səs

№ 120 (6561) 8 iyul 2022-ci il. Qiymәti 60 qәpik

# Koronavirusun mənşəyi: təbiət, yoxsa laboratoriya?

**Alimlərin müxtəlif versiyaları var, qərəzli siyasi yanaşma da az deyil...**




8



**Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında videoformatda görüş keçirilib**

4



**Ölkəmizi hansı ekoloji problemlər gözləyir?**

6



**Meymunçiçəyi həyəcan təbilini çalır!**

12

**Rusiyalı politoloq:**

**“Azərbaycan Ermənistana blokadada qalmamaq şansı verir”**





15



## “Bavariya”

bu futbolçuya 12 milyon avro maaş təklif etdi

16

## Yanacaqdoldurma məntəqələrində benzin niyə yoxa çıxıb?



7

# “Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır”

## Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını və ölkəmizdən kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, ən səmimi arzu və diləklərini çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan xalqının əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçildiyinin, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxladığının vurğulandığı təbrikdə daha sonra deyilir: ”Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm”.

Prezident ümidvar olduğunu bildirib ki, edilən dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcək. ”Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin”, - deyə təbrikdə qeyd olunur.



# Dövlət Qulluğunu İdarəetmə Şurasının yeni tərkibdə ilk iclası keçirilib

**Iyulun 7-də Dövlət Qulluğunu İdarəetmə Şurasının yeni tərkibdə birinci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev iclası giriş sözü ilə açaraq, Azərbaycanda müasir dövlət qulluğu sisteminin yaradılmasının, demokratik, hüquqi və ədalət prinsiplərinə əsaslanaraq inkişaf etdirilməsinin ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb.**

Qeyd olunub ki, dövlət qulluğunun müasir tələblərə uyğun təşkilində və yüksəkixtisaslı, peşəkar milli kadrların hazırlanmasında Ulu Öndərin zəngin idarəçilik təcrübəsi başlıca rol oynayıb. 2000-ci ildə ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun qəbulu ölkəmizdə dövlət qulluğu sahəsində münasibətlərin, bu sferada çalışan şəxslərin hüquqi vəziyyəti ilə bağlı məsələlərin tənzimlənməsində mühüm addım olub.

Bildirilib ki, dövlət idarəçiliyi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və müasir çağırışlara cavab verən standartların tətbiqi, milli kadr potensialının inkişaf etdirilməsi, dövlət qulluğunda keyfiyyətin və səmərəliliyin yüksəldilməsinə xidmət edən məqsədyönlü kadr islahatlarının reallaşdırılması məsələləri Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Prezidenti dövlət qulluğunda yüksək peşəkarlığa, fərdi bacarığa, təşəbbüskarlığa xüsusi önəm verərək, mənəvi-əxlaqi dəyərlərə, etik davranış qaydalarına riayət olunmasını, dövlət orqanlarının (qurumlarının), dövlət qulluqçularının fəaliyyətinə, qəbul olunmuş qərarların tam və düzgün icrasına ciddi nəzarət edilməsini əsas vəzifə kimi müəyyənləşdirib.

İclasda Şura sədrinin seçilməsi, Şuranın fəaliyyətinin təşkili, dövlət qulluğu sahəsində cari vəziyyət ilə bağlı məruzələr, o cümlədən Dövlət İmtahan Mərkəzinin hesabatı dinlənilib, həmçinin dövlət qulluğunda kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işinin mövcud vəziyyəti ilə bağlı müzakirələr aparılıb.

Keçirilmiş səsvermə nəticəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Şuranın sədri seçilib. Bundan başqa, Dövlət Qulluğunu İdarəetmə Şurası Katibliyinin funksiyaları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinə həvalə olunub və Şuranın Katibliyinin fəaliyyət istiqamətləri təsdiq edilib.

İclasın sonunda Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Dövlət Qulluğunu İdarəetmə Şurasının üzərinə qoyulan yeni mühüm vəzifələrin layiqincə həyata keçirilməsi üçün dövlət orqanları (qurumları) ilə daha çevik və səmərəli əlaqələndirmənin zəruriliyini qeyd edib və Şuranın gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Türkiyə səfiri: “Azərbaycan türk dövlətləri arasında lokomotiv rolunu oynayır”



**“Türkiyə və Azərbaycan hadisələrin xaricində qalaraq strateji siyasət həyata keçirir”. SİA-nın verdiyi məlumata görə, bu sözləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ”Şuşa Bəyannaməsindən Sonra Türkiyə-Azərbaycan Müttəfiqlik Münasibətləri, Yeni Regional Reallıqlar və Qarabağın Yenidən Qurulması və İnkişafında Türkiyənin Rolu” haqqında Diplomatiya Həftəsi iştirakçıları qarşısında çıxışında deyib.**

Onun sözlərinə görə, Azərbaycan enerji təhlükəsizliyi məsələsində Türkiyəyə dəstək olur: ”Azərbaycan qaz xətlərini Türkiyə üzərindən keçirərək Avropaya çatdırılma edir. Azərbaycanın qaz ixracatı Avropanı tam qazla təchiz edə bilməz. Amma Azərbaycanın qazının Türkiyənin keçən xətlərlə Avropaya çatdırılması Rusiyanın Avropaya təhdidinin qarşısını hələ ki, alır. Amma bu, sonsuza qədər davam edə bilməz. Azərbaycanla Türkiyə bu münasibətlər 3-cü ölkələrlə də inkişaf etdirmək niyyətindədir”.

Səfir daha sonra bildirib ki, Şuşa Bəyannaməsi bir yol xəritəsidir. Strategiyamızı və taktikamızı yeniləməli və dəyişməliyik. Amma fəlsəfəmiz dəyişmir. Biz birlikdə güclüyük. Azərbaycan və Türkiyə bir əl, bir yumruq olmalıdır ki, regionda daima möhkəm və qüvvətli ola bilsin:

”Şuşa Bəyannaməsinin imzalanmasını türk dövlətlərini birləşdirmək üçün atılan addım adlandıran səfir deyib ki, bu Bəyannamə Türkiyə-Azərbaycan qardaşlığını, müttəfiqliyini təsdiq edən sənəddir və siyasi iradəmizi əks etdirir. Dünyada baş verən dəyişikliklər, qlobal problemlər fonunda strateji plan hazırlanır. Hər ölkə bu addımı atmalıdır”, - deyə Cahit Bağçı vurğulayıb.

C. Bağçı daha sonra qeyd edib ki, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin bir yerdə fəaliyyət göstərməsi hazırkı dönəmdə mühüm əhəmiyyət kəsb edir. Son dövrlərdə türk dövlətlərini birləşdirən qurum və təşkilatların tez-tez bir araya gəlməsi çox müsbət haldır. Azərbaycanın türk dövlətləri arasında lokomotiv rolunu oynadığını vurğulayan səfir deyib: ”Türkiyə 1983-cü ildən bu yana embarqoya sinə gərərək şərəfli bir yol keçib. Məhsulları ilə özünü təmin edən güclü bir ölkəyə çevrilib. Azərbaycan da otuz illik işğala məruz qalaraq çox əziyyətlər çəkib”.

Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağın işğalının 44 günlük Vətən müharibəsi nəticəsində Qələbə başa çatdığını qeyd edən Cahit Bağçı Azərbaycanın bu Zəfərinin digər ölkələrə örnək olduğunu vurğulayıb.

# İordaniya mətbuatı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı və ikitərəfli əlaqələrin inkişafından yazıb



İordaniyanın ”Əl Ənbat”, ”Cohina”, ”Şaab” qəzetlərində, həmçinin Əlcəzairin ”Əl Hərir” portalında Qoşulmama Hərəkatının Bakı konfransı və İordaniya-Azərbaycan əlaqələrinin inkişafı barədə silsilə məqalələr dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalələrin müəllifi iordaniyalı akademik Mərvan Suda Bakı konfransının əhəmiyyətindən bəhs edib, bu mötəbər tədbir çərçivəsində İordaniya Haşimilər Krallığının Nümayəndələr Palatasının sədri Əbdülkərim Feysəl Deyfullah əd-Duğmi və Senatın sədri Feysəl Akif əl-Fayezin Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Baş nazir Əli Əsədov və xarici işlər naziri Ceyhun Bayramovla keçirdikləri görüşlərdə müzakirə olunan məsələləri diqqətə çatdırıb. O qeyd edib ki, İordaniya parlamentinin hər iki palatasının sədrləri ölkəmizin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması ilə bağlı təşəbbüsünün və Bakı konfransı çərçivəsində müzakirə olunan məsələlərin vacibliyindən danışıblar, eyni zamanda, İordaniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu qeyd ediblər. Onlar dövlətlərarası əlaqələrin möhkəmlənməsində İordaniya Kralı ilə Azərbaycan Prezidenti arasındakı dostluq münasibətlərinin rolunu vurğulayıblar.

Yazılarda bildirilib ki, Baş nazir Əli Əsədovla görüşdə Azərbaycan ilə İordaniya arasında ticari-iqtisadi münasibətlərin genişləndirilməsi, qarşılıqlı investisiya imkanları və biznes əlaqələrinin təşviqi, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Müəllif vurğulayıb ki, gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd ediləcək və bu münasibətlə təşkil olunacaq tədbirlərin böyük əhəmiyyətə malikdir.



# "Böyük Qayıdış"ın ilk ünvanı - AĞALI KƏNDİ

## *İLHAM ƏLİYEV: "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır"*

Bəli, 44 günlük qələbədən sonra Azərbaycan dövləti üçün prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və "Böyük Qayıdış"ın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir. Ölkə rəhbərliyi "Böyük Qayıdış"ı yüksək səviyyədə həyata keçirmək əzmini dəfələrlə nümayiş etdirib. Hazırda işğaldan azad olunan ərazilərdə görülən önəmli və fundamental işlər Azərbaycanın bu istiqamətdəki qüdrətini bir daha göstərir. Belə ki, Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər zamanı dövlət başçısı Qarabağımıza "Böyük Qayıdış"ın rəmzi olan, Zəngilanın Ağalı kəndinin "Ağıllı kənd" layihəsi ilə yenidən qurulmasının başa çatması ilə əlaqədər Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə demişdir ki, Müstəqillik Günü ərəfəsində burada olmalı idimi: "Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq"."Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq.



### SÖZÜ İLƏ ƏMƏLİ ÜST-ÜSTƏ DÜŞƏN QALİB LİDER

Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində qeyd edib ki, Ağalı kəndi heç bir il keçmədən yenidən qurulacaq, dünyanın bəlkə də ən mütərəqqi kəndlərindən birinə çevriləcək: "Bu gün Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoyduq. Yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq".Dövlətimizin başçısı deyib: "Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Bəli, bu gün Zəngilanın Ağalı kəndində Böyük Qayıdışın ilk təməlini qoyan Prezident İlham Əliyev burada infrastruktur işlərinin öz qaydasında davam etdiyini, birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verildiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, Ağalı kəndi oktyabrın 28-də işğalçılardan azad olundu və altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Bu, nümunəvi kənd olacaq, çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir. Həm tikiləcək evlər, ictimai binalar, sosial obyektlər, həm də iş yerləri, əkin sahələri müəyyən edilib. Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirməyə imkan verəcək: "Böyük Qayıdış başlayıb. Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4-6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır. Bu hadisə münasibətilə zəngilanlıları və bütün Azərbaycan xalqını təbrik edirəm", - deyə Azərbaycan Prezidenti vurğulayıb. Bu da sirr deyil ki, Zəngilan rayonu da erməni vandallarının dağıdıcılıq və ekoloji terror əməllərinə məruz qalıb, bütün kəndlər yerlə-yeksan olub, tarixi-dini abidələr məhv edilib. Lakin bu gün işğaldan azad olunmuş digər ərazilər kimi Zəngilanda da abadlıq-quruculuq işləri həyata keçirilir. Eyni zamanda, Zəngilan rayonunda tarixi-dini abidələrin bərpası işləri başlanıb, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidi də əsaslı şəkildə təmir olunur. Həmçinin Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturu, bu il istismara veriləcək Zəngilan Beynəlxalq Hava Limanı da var. Bütün bu işlər heç şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi və tezliklə insanların doğma torpaqlarına Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsinin təyin olunması ilə əlaqədar keçirdiyi qəbulda qeyd etdiyi kimi, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtması əsas məsələlərdən biridir. Zəngilan birinci rayondur ki, keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur və burada salınan "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Burada yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri yaradılır. Ərazidə tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ekoloji ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası inşa edilir. Ümumilikdə Ağalı kəndinin timsalında hər kəs işğaldan azad olunmuş ərazilər ilə bağlı Azərbaycanın planlarını görə bilər.

### "BU GÜN GÖZƏL ZƏNGİLAN TORPAĞINDA HƏYAT QURURUQ"

Prezident İlham Əliyev "Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü, həm ədaləti, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq",-deyən Azərbaycan Prezidenti Zəngilana, başqa yerlərə, Şuşaya həyatın qayıtdığını deyib: "İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək".Dövlət başçısı Zəngilanda böyük aqropark salındığını və bu il ilk məhsul götürüləcəyini də dedi: "Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək". Prezident bildirib ki, dünən Zəngilan şəhərinin Baş planı ilə tanış olub: "Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq".

### "BİZ GÜCLÜ OLMASAQ, İSTƏDİYİMİZ KİMİ YAŞAYA BİLMƏRİK"

Dövlət başçısı çıxışında bütün bu uğurların əsası güc amili olduğunun və ölkəmizin öz gücünü artırmasının zəruriliyi məsələsinə də toxunaraq deyib ki, güc amili ön plandadır: "Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Demişdim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də".Güc amilinin bundan sonra da dünyada hakim olacağını vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında bu il ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılıb, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd apara bilər. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur".

### "BÖYÜK QAYIDIŞ"IN GERÇƏKLƏŞƏCƏYİ GÜNƏ ÇOX AZ VAXT QALDI...

1993-cü ilin oktyabrın 30-da Zəngilan erməni silahlı qüvvələrinin işğalına məruz qalandan sonra rayonun 45 minlik əhalisi məcburi olaraq ölkənin 43 rayonunda müvəqqəti məskunlaşan, zəngin təbii sərvətləri, tarixi və dini memarlıq abidələri olan bu gözəl diyarı başdan-başa tarmar edilən Zəngilan 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimizin başladığı güclü əks-hücum əməliyyatları nəticəsində, 44 günlük Zəfər yürüşü ilə doğma torpaqlarımız, o cümlədən Zəngilan düşmən tapdağından azad olunub. Bu gün Zəngilan quruculuq meydanına çevrilib. Artıq "Böyük qayıdış"ın gerçəkləşəcəyi günə çox az vaxt qalır. Bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, onlara həyat qayıdır. Onilliklər boyu yurd həsrəti ilə yaşayan vətəndaşlarımızın qısa müddət ərzində öz dədə-baba torpaqlarına qovuşdurulması üçün böyük işlər həyata keçirilir - "Ağıllı kənd" layihəsinin tətbiq edildiyi Zəngilanın Ağalı kəndi ilə başlayır. Və Zəngilanın "ağıllı kəndi"Ağalı da bu "Böyük Qayıdış"ın ilk ünvanı, doğma sakinlərinə əbədi qovuşan ilk bəxtiyar diyar oldu. Sonda fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə "Böyük Qayıdış" üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Və bu gün hamı "Böyük Qayıdışı" gözləyir, o günə isə çox az qalıb...

***RƏFİQƏ KAMALQIZI***

# Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında videoformatda görüş keçirilib

**İyulun 7-də Çin Kommunist Partiyasının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan arasında videoformatda görüş keçirilib.**

Görüşdə partiyalar və dövlətlər arasında mövcud olan münasibətlərin yüksək inkişaf dinamikasından məmnunluq ifadə edilib, ikitərəfli və beynəlxalq platformada əməkdaşlığın qarşılıqlı maraq doğuran bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda qeyd edilib ki, dövlət başçıları arasındakı dostluq və yüksək siyasi dialoq ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edən münasibətlərin daha da genişlənməsinə böyük töhfələr verir.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrə böyük önəm verir, ölkələrimiz arasında bu gün siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz uğurla davam edir. Əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin dostluq münasibətlərinin əhəmiyyətini vurğulayan YAP Sədrinin müavini ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın gücləniməsinə zəmin yaratdığını qeyd edib.

O, həmçinin Azərbaycanın Çin Xalq Respublikasının irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb. Zəngəzur dəhlizi isə Azərbaycanın tranzit ölkə kimi potensialını daha da gücləndirəcək, bu dəhliz vasitəsilə Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artması regionda Azərbaycan və Çinin də fəal iştirakçısı olduğu yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.












Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan da bildirib ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Vurğulanıb ki, Azərbaycan regionda Çinin əsas tərəfdaşlarından biridir. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyən Çin Xalq Respublikası Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında maraqlıdır.

Görüşdə, həmçinin Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası arasında əlaqələrin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdiyi, partiya nümayəndə heyətlərinin səmərəli qarşılıqlı səfərlərinin və görüşlərinin həyata keçirildiyi, bu əlaqələrin möhkəmləndirilməsinin vacibliyi qeyd edilib, partiyaların gəncləri arasında əlaqələrin güclənməsinin zəruriliyi və qarşılıqlı səmərəli əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyasının nümayəndələri arasında iki mövzuda videokonfrans da keçirilib.

"Texnologiya və innovasiya" mövzusunda keçirilən videokonfransda Çin Kommunist Partiyasının Şanxay şəhər komitəsinin nümayəndəsi, professor Dun Yuxun Şanxayın "ağıllı şəhər" modeli haqqında geniş məruzə edib, bu istiqamətdə Çinin təcrübəsini bölüşüb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Elşad Mirbəşiroğlu çıxış edərək Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa işlərində Çin şirkətlərinin iştirakını dostluq nümunəsi kimi dəyərləndirib. O, azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin icra olunduğunu və burada beynəlxalq təcrübədən geniş istifadə edildiyini diqqətə çatdırıb.

Növbəti konfrans isə "Bir kəmər, bir yol"un tikintisi və inkişaf perspektivləri" mövzusunda keçirilib. Çin Kommunist Partiyasının nümayəndəsi, ekspert Qonq Paypinq mövzu ilə bağlı geniş təqdimatla çıxış edib.

YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iki ölkə arasında münasibətlərin inkişafından, o cümlədən Azərbaycanın "Bir kəmər, bir yol" layihəsinə verdiyi önəmindən bəhs edib.

# Azərbaycanın maddi-mədəni irsinə qarşı erməni vandalizmi



"Azərbaycan dünyada ən böyük ədalətsizliklə üzləşmiş ölkələrdən biri idi. Ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi". Bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışı zamanı deyib. Dövlətimizin başçısı bildirib ki, 30 il ərzində işğal edilmiş ərazilərdə bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən yer üzündən silinib. Bu gün azad olunmuş ərazilərə səfər edənlər bu barbarlığın və vandalizmin şahidi ola bilərlər. Dövlət başçısı bildirib ki, Azərbaycan işğala son qoyaraq beynəlxalq ədaləti bərpa edib və indi azad edilmiş ərazilərə səfər edən hər kəs azərbaycanlıların dini-mədəni irsinə qarşı törədilmiş vandalizmi öz gözləri ilə görə bilir: "Ermənistanın bizim ərazilərimizin təxminən 20 faizini işğal etməsi etnik təmizləmə ilə nəticələndi, 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Bizim tarixi və dini irsimiz erməni işğalçıları tərəfindən silindi. İndi azad edilmiş ərazilərə səyahət edənlər bunu - bu barbarizmi, vandalizmi, bizim məscidlərimizin murdarlanması, mədəni və dini abidələrimiz dağıdılmasını öz gözləri ilə görə bilərlər. Bütün bunlar faktlardır, necə erməniyönlü qüvvə olmasından asılı olmayaraq, heç kim buna göz yuma bilməz. Onların dəstəkçiləri buna məhəl qoymamağa çalışırlar, amma onlar bu faktlara məhəl qoymaya bilmirlər. Çünki artıq on minlərlə insan azad edilmiş ərazilərə səfər edib, bura xarici ziyarətçilər - siyasətçilər, parlament üzvləri, parlament sədrləri, jurnalistlər, ekspertlər və sıravi insanlar daxildir. Biz buna son qoyduq. Biz ədaləti, beynəlxalq hüququ bərpa etdik".

## "AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARDA BİZİM TARİXİ, MƏDƏNİ, DİNİ İRSİMİZ ERMƏNİLƏR TƏRƏFİNDƏN DAĞIDILIB, TƏHQİR EDİLİB, SÖKÜLÜB"

Prezident İlham Əliyev bir neçə gün əvvəl işğaldan azad olunmuş rayonlarımıza səfəri zamanı bir daha diqqəti ermənilər tərəfindən məscidlərimizin dağıdılmasına yönəltdi: "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb",- deyən Prezident İlham Əliyev İlham Əliyev bunun bütün müsəlman aləminə, islam dininə qarşı cinayət olduğunu bildirib. Ermənilərin binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi, o cümlədən bu sanatoriyanı dağıtdıqlarını bildirən Prezident İlham Əliyev deyib: "Bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir". Qarabağa səfəri zamanı Prezident İlham Əliyev Zəngilan məscidinin də təməlini qoydu. Dövlət başçısı bununla bir daha göstərdi ki, azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış bütün məscidlər bərpa olunacaq, yenidən qurulacaq. Xatırladaq ki, yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Yuxarı Gövhər ağa məscidi Şuşanın tam mərkəzində yerləşir. Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhər ağanın adını daşıyır. Üstündəki naxışlar şuşalı xəttat Mir Möhsün Nəvvaba aiddir. Binanın fasadında "Qurani-kərim"dən ayələr həkk edilib. Həmçinin Gövhər ağanın vəsiyyətlərini əks etdirən daş kitabələr də yonulub.1992-ci ildə Şuşanın işğalından sonra məscid ciddi dağıntılara məruz qalıb. Ermənilər "təmir-bərpa" adı altında məscidin üzərində olan və onun Azərbaycan xalqına məxsusluğunu xatırladan naxışları məhv etməyə çalışıblar. Bununla da məscidi erməniləşdirməyə çalışıblar. Amma nail ola bilməyiblər. Çünki bu məscidin erməniləşdirilməsi mümkün deyil.Ağdam Cümə məscidinin quru divarlarını isə ermənilər yalnız hərbi məqsədlər üçün saxlamışdılar. İşğaldan sonra ermənilər məscidi benzin töküb yandırıblar, divarlarına təhqiramiz ifadələr yazıblar. İçərisində mal-qara və donuz saxlayıblar. Ağdamda Şahbulaq ərazisində yerləşən, Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilmiş Şahbulaq məscidi, onun davamı sayılan Papravənd kənd məscidi də eynilə viran qoyulub. Zəngilan, Cəbrayıl rayonundakı, Qubadlının Məmər, Füzulinin Alxanlı kənd məscidlərini də donuz ferması qismində istifadə ediblər.

## DAĞIDILAN YALNIZ İSLAM MƏDƏNİYYƏTİNƏ AİD OLAN ABİDƏLƏR DEYİL

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi abidələrin vəziyyəti göstərir ki, ermənilər 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının tələblərini kobud şəkildə pozublar. 30 ilə yaxın işğal dövründə Qarabağda islam mədəniyyətinə aid olan bütün məscidlər, abidələr dağıdılıb. Lakin dağıdılan yalnız islam mədəniyyətinə aid abidələr deyil. Maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağda Azərbaycan xalqına məxsus bütün tarixi abidələr də vandallığa məruz qalıb, muzeylər talan edilib, milli eksponatlarımız Ermənistana daşınıb. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılıb. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib.Artıq torpaqlarımız işğaldan azaddır. Qarabağda dağıdılmış bütün milli-mənəvi dəyərlərimiz, tarixi abidələrimiz, məscidlərimiz yenidən qurulacaq və onlar bu torpaqların qədim Azərbaycan yurdu olduğunu yenidən dünyaya bəyan edəcəklər.

## "ERMƏNİLƏR DAHİ ŞƏXSİYYƏTLƏRİMİZİN BÜSTLƏRİNİ TƏHQİR EDƏNDƏN SONRA ONLARI ƏRİDİB SATMAQ, PUL ƏLDƏ ETMƏK ÜÇÜN ERMƏNİSTANA APARMIŞDILAR"

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. "Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Şuşa Mədəniyyət Mərkəzi, Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllələbaran edib. Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1992-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi",-deyən dövlət başçısı bildirib ki, bu büstlər artıq öz yerlərindədir.

## "DAHİ ŞƏXSİYYƏTLƏRİMİZİN BÜSTLƏRİ BİZİM QƏLƏBƏMİZİN RƏMZİDİR"

"Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır",-deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, artıq onlar doğma Vətənə qayıdıblar: "Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini. Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!". Bəli, bu gün 44 günlük müharibədə işğala son qoyulduqdan sonra bütün vandalizm çılpaqlığı ilə ortaya çıxdı: ermənilər Azərbaycanın maddi, mədəni və dini irsini məhv etməklə kifayətlənməmiş, şəhərləri, qəsəbələri, kəndləri yerlə bir etmişdi; 30 il öncə olan şəhərlərimizin yerində sadəcə düzəngah qalıb; Dünya da fakt qarşısında qaldı. ABŞ Dövlət Departamentinin 2021-ci ildə dünyada dini dözümlülüyün durumu haqqında dərc etdiyi hesabatında erməni vandalizmi ilə bağlı qeyd olunanlar da dünyanın acı gerçəkliyi qəbul etmək məcburiyyətində olduğunu göstərir. Hesabatda qeyd olunur ki, işğal dövründə Azərbaycanın yüzlərlə məscidi, ziyarətgahı, qəbiristanlığı talan edilib, dağıdılıb və təhqir olunub.

## DÜNYA NİYƏ ERMƏNİ VANDALİZMİNƏ GÖZ YUMMAQDA DAVAM EDİR?

Erməni terrorçuları tərəfindən 30 ilə yaxın işğalda qalan ərazilərimizdə 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı idi. Xarici İşlər Nazirliyinin hazırladığı "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması" adlı hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim edilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər. Həmçinin, bu gün İrəvan şəhərində olan Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin də taleyi acınacaqlıdır. Belə ki, Təpəbaşı hissəsinin tarixi, şəhərdə yüz il əvvəl başlanmış və hələ də davam edən Azərbaycan irsinin sistemli dağıdılması prosesi həyata keçirilir. Artıq Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə məlumatlar əldə olunub. Qeyd edək ki, Təpəbaşı qədim İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub, hazırkı İrəvan şəhərinin də tarixi nüvəsini təşkil edir. Və bu gün belə bir abidənin - Təpəbaşının məhv edilməsinin qarşısının alınması da dünya ictimaiyyətinin göz yumması yolverilməzdir. Xüsusi ilə UNESCO tərəfindən etinasızlıq göstərilməməlidir. Çünki bu, dünya mədəni irsinin bir hissəsidir.

## DÖVLƏTİMİZ ERMƏNİ VANDALİZMİNƏ, BARBARLIĞINA ŞAHİD OLMUŞ QARABAĞI CƏNNƏTƏ ÇEVİRƏCƏK

Dövlətimiz erməni vandalizminə, barbarlığına şahid olmuş Qarabağı cənnətə çevirəcək və Prezident İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində işğaldan azad olunmuş ərazilərdə quruculuq, bərpa işləri aparılır. Bu il artıq tikintisinə başlanılan Füzuli Beynəlxalq Hava Limanının, Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı olan yeni avtomobil yolunun istifadəyə verilməsi planlaşdırılır. Eyni zamanda, azad edilmiş torpaqlarda ikinci beynəlxalq hava limanı da Kəlbəcər və ya Laçında inşa edilir. Bir sözlə, sözügedən hava limanı və yol bölgənin inkişafında, turizm infrastrukturunun yaradılmasında, həyata keçiriləcək tədbirlərin, o cümlədən bərpa və yenidənqurma işlərinin reallaşdırılmasında rolu böyük olacaq. Bir sözlə, dünya birliyi unutmamalıdır ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələridir. Ermənistan dağıtdığı bütün tarixi abidələrə, mədəniyyət müəssisələrinə görə məsuliyyət daşımalı və təzminat ödəməlidir. Bunun üçün Ermənistana qarşı beynəlxalq təzyiq gücləndirilməlidir.Bütün bu dağıntılara, maddi və mənəvi ziyana rəğmən dövlətimiz bir tərəfdən də barbarlığa məruz qalan dini, tarixi, mədəni abidələrimizin bərpası ilə məşğuldur. Təəssüf ki, UNESCO da bu məsələdə prinsipiallıq və qətiyyət nümayiş etdirməyib. Əksinə, bu təşkilat tərəfindən Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra erməni təəssübkeşliyini əks etdirən iddialar səslənədirilib. Lakin məğlub ölkənin öz cinayətlərini pərdələmək, ört-basdır etmək imkanları artıq tükənib. UNESCO missiyasının obyektiv monitorinqi nəticəsində bütün dünya Azərbaycan xalqının irsinə qarşı törədilmiş əməllərdən xəbərdar olacaq. Beləliklə, beynəlxalq platformada Azərbaycan erməni vandallığını və erməni iddialarının saxta olduğunu dünyaya sübut edəcək. Və Ermənistan beynəlxalq təsisatların üzvü olan bir dövlət olaraq, Azərbaycanın dini və mədəni irsinə qarşı işğal olunmuş ərazilərdə törədilmiş vandalizm aktlarına görə cavabdehdir. Unutmayaq, Ermənistan Azərbaycanın işğal etdiyi ərazilərdə yol verdiyi vandallığa görə mütləq cavab verəcəkdir.

**RƏFİQƏ HÜSEYNOVA**



# Ölkəmizi hansı ekoloji problemlər gözləyir?

**Hər il dünya ölkələri bir araya gələrək ətraf mühitin çirkləndirməsinin qarşısını almaq üçün müzakirələr aparır.**

## Bəs ölkəmizdə vəziyyət nə yerdədir?

Bildiyimiz kimi dünyada ətraf mühitin çirklənməsi əsas problemlərdən biri sayılır. Bu istiqamətdə atmosferə atılan çirkləndirici qazlar toplanaraq temperaturun artmasına və iqlim dəyişmələrinə gətirib çıxarır. Dünya üzrə 1840-cı ildən bu vaxta qədər aparılan elmi müşahidələr onu göstərir ki, temperatur 1,8oC artmışdır və bu artım hər il dahada artmaqda davam edir. Temperaturun artması xüsusilə 1990-cı ildən sonra intensivləşmişdir. Temperaturun bu cür artması atmosferdə anomaliyaya səbəb olmuş, kəskin istilərin və kəskin soyuqların sayı artmışdır. Soyuq iqlim şəraitinə malik olan şimal qütbündə, Antarktidada və Cənub qütb dairəsinə Arktikada milyon tonlarla buzlaqların əriməsi baş verir ki, bu da gələcəkdə çox ciddi fəlakətlərə yol aça bilər. Bununla bağlı 1992-ci ildə Yer Sammitində BMT-nin Rio-de Jeneyroda keçirilmiş İqlim konfransında İqlim dəyişmələri üzrə Çərçivə konvensiyası qəbul olunmuş ölkələrin qarşısında emissiyaların azaldılması ilə bağlı öhdəliklər müəyyən olunub.

1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Kioto Protokolu 1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində qəbul edilib və 2005-ci il fevralın 16-da qüvvəyə minib. Azərbaycan Respublikası Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə bu Protokola qoşulub. Bu öhdəliklərə əsasən temperaturun artmasının azaldılması və bu səviyyədə saxlanması üçün İstilik effekti yaradan qazların azaldılması üzrə öhdəliklər müəyyən olunub. Bununla bağlı son konfrans 2015-ci ildə Parisdə keçirilmiş və Paris razılaşması adlanan bəyannamə qəbul edilmiş, Azərbaycan daxil olmaqla bütün ölkələr İstilik effekti yaradan qazların(İEQ) azaldılması üzrə öhdəliklər müəyyən olunmuşdur.

Temperaturun artması artıq öz fəsadlarını verməkdədir. Dünya üzrə su ehtiyatlarının azalması baş verir. Azərbaycan Cənubi Qafqazda ən az su ehtiyatlarına malikdir və bu ehtiyatlar əsasən qonşu ölkələrdə (Gürcüstan, Türkiyə, İran, Ermənistan) formlaşır.

Azalma o həddədir ki, Kür çayı mənsəbinə yəni Xəzər dənizinə gedib çatmır və 2021-ci ildən başlayaraq Xəzər dənizi çaya daxil olaraq 40-50 km məsafədə Salyan rayonu istiqamətində irəliləmişdir.

"Azərbaycan üçün su ehtiyatlarının səmərəli istifadəsi və suvarma zamanı daha müasir və qənaətcil metodların tətbiqi ən prioritet işlərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında Kimya elmləri üzrə fəlsəfə doktoru, Ekoloq Sadiq Həsənov qeyd edib.



Hazırda Azərbaycanda əkin sahələrinin 60-70%-i ənənəvi şırım metodu ilə suvarılır ki, buda su ehtiyatlarında 50 %-ə qədər itki verir.

Əkin sahələrində gedən deqradasiya, su çatışmazlığı regionlarda yaşayan əhalini əsas gəlir mənbələrindən məhrum edə bilər və nəticədə insanların şəhərlərə miqrasiyası baş verə bilər. Bu isə öz növbəsində kənd yerlərində və şəhərlərdə ərzaq qıtlığının yaranmasına gətirib çıxara bilər. Susuz qalmış torpaqlarda səhralaşma artır və nəticədə münbit torpaqların sahəsi azalır.

İqlim dəyişmələrinin ikinci ən böyük təsiri Xəzər dənizinin səviyyəsinin 1.5 metr aşağı düşərək -28 metr həddinə çatmasıdır. Ümumiyyətlə Xəzər dənizi 1930-cu ildən başlayaraq su səviyyəsində düşmə müşahidə olunmağa başlayıb. Ən çox düşmə 1977-ci ildə müşahidə olunub, sonradan suyun səviyyəsi 1997-ci ildə öz -26.5 metrə qədər artmışdır. Bu ildən başlayaraq düşmə davam edir və bir ildə alimlərin, beynəlxalq ekspertlərin hesablamalara görə 0,4 sm azalma baş verir. Dənizin su səviyyəsinin azalmasında əsas səbəblərdən biri Qlobal istiləşmə və iqlim dəyişmələri nəticəsində buxarlanmanın artmasıdır. Beynəlxalq elmi mərkəzlərin, ölkə üzrə mütəxəssislərin fikrinə görə Xəzər dənizində səviyyənin aşağı düşməsi davam edəcəkdir.

Dənizin su səviyyəsinin azalması Azərbaycan üçün ciddi fəsadlarla müşayət olunacaq. Dəniz obyektlərində və dəniz kənarlarında qurulan infrastrüktur obyektləri yenidən planlaşdırılmalı və tikilməlidir. Dənizdə olan turizm infrastrükturları maliyyə itkisinə məruz qala bilər.

Bununla yanaşı, İqlim dəyişmələrinin təsiri ilə su ehtiyatlarının azalması, quraqlıq nəticəsində səhralaşmanın artması eyni zamanda torpağa antropogen təsirin artması, yəni insanların düzgün olmayan təsərrüfat fəaliyyəti, torpaq ehtiyatlarının idarə edilməsindəki bəzi çatışmazlıqlar və iqlim dəyişmələrinin təsiri nəticəsində torpaqlarda deqradasiya prosesləri kəskin şəkildə artmışdır.

Mütəxəssislərin qənaətinə görə, torpaqların tənəzzülə uğraması, əsasən, mal-qaranın örüş-otlaq sahələrində normadan artıq otarılması (artıq yüklənmə), meşələrin qırılması, floranın məhv edilməsi və torpaqların səmərəsiz istifadəsi və sənaye istehsalının təsiri nəticəsində baş verir. Bununla yanaşı, torpaqların və suvarma suyunun kimyəvi çirklənməsi, kənd təsərrüfatı bitkilərinin pestisidlər və aqrokimyəvi maddələrlə düzgün işlənilməməsi nəticəsində baş verən kimyəvi çirklənmə həlli vacib olan məsələlərdir. Ən vacibi isə torpaqların ağır metallarla çirklənməsinin qarşısının alınmasıdır. Torpaqların qorunması və bu istiqamətdə fermerlərə yardım etməsi üzrə Azərbaycan Respublikasının Nazirlər Kabinet, Kənd təsərrüfatı nazirliyi və bir sıra nazirliklər tərəfindən bir çox işlər görülür.

## Bəs yaşıllıq sahələrin genişləndirməsi üçün hansı yeni layihələr planlaşdırılır ?

Azərbaycanda yaşıllıqların artırılması istiqamətində son illər bir çox işlər görülsədə bu sahədə bir çox problemlər qalmaqdadır. Ümumiyyətlə şəhərlər üzrə, o cümlədən Bakı şəhəri üzrə 1 nəfərə düşən yaşıllıq sahəsi 5 kv.m -dən azdır və bu dünya üzrə yaşıllıq normalarından və ölkə üzrə adambaşına düşən yaşıllıq sahəsi normalarından bir neçə dəfə aşağıdır(Dünya üzrə bu 22-25 m2). Şəhərlərdə yaşıllıq sahələrinin norma daxilində olması şəhərlərin havasını təmizləyir, temperatur amplitudasını yaxşılaşdırır və insan sağlamlığı üçün vacib maddə olan oksigenin yaranmasına köməklik edir. Yaşıllıq əraziləri həm də şəhərin estetik dəyərlərinin artmasına köməklik edir.

Son illər Bakıda və digər şəhərlərində tikiti işlərinin artması yaşıllıqlara mənfi təsir edir, bəzən yaşıl massivlərin azalmasına səbəb olur. Təcrübə göstərir ki, böyük şəhərlərin ətraf mühitlə bağlı bəzi problemləri yaşıllıq ərazilərin artırılması hesabına həll edilə bilər. Bu 2011-ci il və 2020-ci illər arasında aparılan jurnalist araşdırmaları nəticəsinə məlum olmuşdur ki, Bakı şəhərinin Nizami rayonu, 8-ci km ərazisində, Binəqədi rayonunda Azadlıq metrosu yaxınlığında, Gənclik metrosu ətrafı, A.Sultanovanın heykəli ətrafında, Səbail rayonu Badamdar və Bayıl yaşayış massivində olan yaşıllıqlar məhf edilmiş, yerində müxtəlif İAŞƏ obyektləri tikilmişdir. Son 8 ildə itirilən yaşıllıq ərazisi 45 min kv.m təşkil edir ki, buda Olimpiya stadionun ərazisi qədər ərazi deməkdir. Digər yerlərdə də yaşıllıqların qırılması davam edir.

2001-ci ildə verilən rəsmi məlumatlara əsasən Azərbaycanın ümumi meşə yaşıllıq ehtiyatları 1270 min ha olmuşdur. Meşə və yaşıllıq ərazilərindən digər məqsədlər üçün istifadə edilməsi nəticəsində 2020-ci ildə ağacla örtülü meşə və yaşıllıq fondumuz xeyli azalmışdır.

Yaşıllıq ərazilərinin azalmasında əsas səbəblərdən biri də Qlobal istiləşmənin təsirindən su ehtiyatlarının azalması və ağacların susuzluqdan quruması dır ki, bu da az olan yaşıllıq və meşə ehtiyatlarımızın daha da azalmasına səbəb olur. Ona görədə gələcəkdə yaşıllıq və meşə sahələrinin salınmasında az su tələb edən ağaclara üstünlük verməklə bu növ ağacların və yaşıllıqların sahəsini artırmaq olar.

Bu cür səbəblər müxtəlif xəstəliklərin çoxalmasına, torpaqların münbitliyinin azalmasına və su ehtiyatlarına mənfi təsir edir. Qlobal istiləşmənin təsirindən su ehtiyatlarının azaldığı bir şəraitdə daha az su tələb edən ağacların əkilməsinin, yaşıllıq sahələrində bu cür növlərdən istifadənin stimullaşdırılması üçün təşəbbüslərin artırılmasıdır. Bu növ ağacları həm şəhərlərdə, həm də kənd yerlərində əkmək mümkündür və bu cür yaşıllıq sahələri uzun müddət ərzində ölkəmizi yaşıllıqla təmin edə bilər.

2019-cu il koronavirus xəstəliyinin (COVID-19) qlobal yayılması insan həyatının hər bir hissəsinə, o cümlədən də fiziki dünyaya təsir göstərdi. Virusun yayılmasına və iqtisadi fəaliyyətin ləngiməsinə nəzarət üçün görülən tədbirlər ətraf mühitə ciddi təsir göstərmişdir. Elmi və jurnalist araşdırmalarına nəzər saldıqda COVID-19 pandemiyasının ətraf mühitə müsbət və mənfi təsirlərini müəyyən olunub. Belə ki, 2020 və 2021-ci illərdə istehsal fəaliyyətinin zəifləməsi və ölkələr arasında sərhədlərin bağlanması səbəbindən pandemiya vəziyyəti dünyanın müxtəlif şəhərlərində havanın keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmış, İstilik effekti yaradan qazları azalmış, su mənbələrinin çirklənməsini və sənaye və avtomobil nəqliyyatı tərəfindən səs-küy sakitləşmiş və ekoloji sistemin bərpasına kömək etmişdir.

Bundan əlavə, COVID-19-un bəzi mənfi nəticələri də var, məsələn, tibbi tullantıların artması, dezinfeksiyaedici maddələrin, maskaların və əlcəklərin təsadüfi istifadəsi və utilizasiyası və sairə. Görünən odur ki, pandemiyadan sonra iqtisadi fəaliyyətlər tezliklə olacaq və ekoloji vəziyyət dəyişə bilər. Covid-19 pandemiyası nəticəsində Biotibbi tullantıların əmələ gəlməsinin artması COVID-19-un başlanmasından bəri qlobal miqyasda tibbi tullantıların istehsalı artıb ki, bu da əhalinin sağlamlığı və ətraf mühit üçün əsas təhlükədir.

*Havar Şəfiyeva*

ARAŞDIRMA





# Orta Asiyadakı

## HADİSƏLƏRİN PƏRDƏARXASI MƏQAMLARI

Türkdilli xalqların ana yurdu sayılan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Tacikistanın bir qisimindən ibarət olan bölgədə, yəni Orta Asiyada müşahidə olunan hadisələr, daha doğrusu, təlatümlər bütün dünyanın diqqət mərkəzindədir. Transsibir magistralına və Xəzər-Volqa yoluna çıxışı olan bu yeganə regionun şimal-qərb hissəsinin iqtisadi-coğrafi mövqeyi olduqca əlverişlidir və sözsüz ki, elə bu baxımdan da həmin region bütün dünyanın maraq dairəsindədir. Türk dili qrupuna aid olan özbəklərin, qazaxların, türkmənlərin, qırğızların, qaraqalpaqların və eyni zamanda fars dil qrupuna aid olan taciklərin, monqolların yaşadığı bu region, yəni Orta Asiya uğrunda ortaya çıxan emosiyaların əks-sədası artıq geniş miqyasda yayılmaqdadır və sözsüz ki, bütün bunlar səbəbsiz, eləcə də əbəs yer deyil.

Sirr deyil ki, Orta Asiyanın üç ölkəsi, daha dəqiq desək, Özbəkistan, Qırğızıstan və Tacikistan çoxdandır bir-birinə qarşıdır. Bu üç ölkə bir-birinə qarşı sərhəd iddiaları ilə çıxış edir və hətta saysız-hesabsız anklavların mövcud olduğu Fərqanə vadisi bu ölkələri bir-biri ilə daha sərt şəkildə qarşı-qarşıya qoyur. Elə bu səbəbdəndir ki, onların mübahisələri həll etməsi məsələsi artıq emosional həddə çatıb və buna görə də birinin digərinə zərrə qədər güzəştə getmək niyyəti yoxdur. Üstəlik, bu ölkələr arasında olan gərginliyin fonunda bir də sosial narazılıqların ortaya çıxması vəziyyəti daha da mürəkkəbləşdirir və həmin region, yəni Orta Asiya artıq etnik, eləcə də sosial baxımdan çoxmünaqişəli region kimi tanınır. Bu isə o deməkdir ki, regiona müdaxilə etmək niyyətində olan xarici qüvvələr üçün əlverişli şərait yaranıb və istər etnik münaqişələr, istərsə də sosial problemlər siyasi maraqları olan xarici qüvvələrin həmin regiona təsir imkanlarını artırıb. Bir sözlə, xarici qüvvələrin hərəsinin özünə məxsus olan strategiyasına, xarici siyasət maraqlarına uyğun gələn gərgin vəziyyət onlara sərf edir və bu səbəbdən təlatümlərin hələ nə qədər davam edəcəyini proqnozlaşdırmaq çətindir.

Bildiyimiz kimi, Özbəkistan hakimiyyətinin Qaraqalpaqıstan Muxtar Respublikasına aid Konstitusiyaya təklif etdiyi dəyişiklik mətninin bir neçə cümləsi narazılıqlara səbəb olub. Əhali hesab edir ki, həmin redaktələr, daha doğrusu regionun muxtar respublika statusunun ləğvi ilə bağlı təklif onların onsuz da pozulan konstitusion hüquqlarını daha da pisləşdirəcək. Bir zamanlar, daha dəqiq desək, İslam Kərimovun prezidentliyi dövründə təhlükəsizlik qüvvələrinin gücünə tabe etdirilən Özbəkistan əhalisinin narazılıqlarla bağlı səsi hüquqmühafizə orqanları tərəfindən boğulsa da, hakimiyyətə gələn Şavkat Mirziyoyev onun ənənəsini davam etdirməməyi məqsəd qoydu, amma bununla heç də sosial tələbləri azalmayan Özbəkistan əhlisinin etirazları güclənməyə başladı. Təbii qaza, elektrik enerjisinə olan tələbatın ödənilməməsi vəziyyəti bir az da gərginəşdirdi və bu hal nə Özbəkistan hakimiyyəti, nə də bu ölkə əhalisi üçün arzuolunan nəticələr verə bilməz. Çünki yaranmış vəziyyətdən xarici qüvvələr dərhal yararlanmağa, istifadə etməyə başladılar və indi mövcud olan ab-hava yalnız onların maraqlarına xidmət edir.

Orta Asiyanın, xüsusən də Özbəkistanın diqqət mərkəzindən kənarda olduğu zənn edilsə də, əslində dünyanın diqqətinin, marağının cəmləndiyi region olduğu bəlli olur. Məhz həmin maraq kontekstində bu region, ələlxüsus Özbəkistan uğrunda, belə demək mümkünsə, xarici güclər arasında savaş gedir. Sanki, onlar nəyi isə bölə bilmirlər və buradakı sosial etirazlar onların hər birinin maraqlarına xidmət edir. Əks halda, etirazların qarşısının alınması istiqamətində hansısa formada fəaliyyətin olduğu müşahidə edilərdi. Məsələ burasındadır ki, biz bunun əksini seyr edirik və Orta Asiyanın məqsədli və planlı şəkildə yenidən qarışdırmağa çalışıldığını görürük. Görürük ki, Türk coğrafiyasında siyasi-ictimai xaosun yaradılmasında maraqlı qüvvələr var və Orta Asiya üzərində nəzarət uğrunda geopolitik mübarizə davam edir, hansıki bunun nə qədər sürəcəyi də bəlli deyil. Kənar təsirlərin rolunun olduğunu nəzərə alaraq isə deyə bilərik ki, bu prosesin yaxın gələcəkdə daha da dərinləşmə ehtimalı böyükdür. Çünki, eyni ilə Cənubi Qafqaz kimi bu region da, yəni gələcəkdə Avropa ilə Asiyanı birləşdirəcək yeni iqtisadi-ticari marşrut üzərində olan bu bölgə də, inkişaf etmiş ölkələrin, xüsusilə nəhəng dövlətlərin maraq dairəsindədir.

İlk növbədə onu diqqətə çatdırmaq lazımdır ki, bölgələrdə süni şəkildə yaradılan qaynar nöqtələrdən, həssas məqamlardan Rusiya məharətlə istifadə edərək, nəzarət mexanizmini əlində saxlamağa çalışacaq. Bununla yanaşı, həm də Ukraynadan dünyanın diqqətinin müəyyən qədər yayımdırılması baxımından da Orta Asiyada vəziyyətin gərgin olması Rusiyanın maraqları daxilindədir. Sözsüz ki, burada bir yanlışlıq var, çünki Orta Asiyada vəziyyət nə qədər gərgin olsa belə Qərb yalnız Ukrayna ilə maraqlanacaq və diqqəti də qəti şəkildə yayınan deyil. Türkdilli xalqların, müsəlmanların məskunlaşdığı ərazilərdə yaşanan gərginlik Qərb üçün heç zaman həyəcan təbili hesab olunmayıb və bundan sonra da narahatlıq doğuran deyil. Biz bunun Qarabağda cərəyan edən hadisələr fonunda da şahidi olduq və gördük ki, xristian ölkəsi olan Ukraynada dağıntılara görə maddi yardımlar ayrılmasına baxmayaraq, bir müsəlman ölkəsi olan Azərbaycana, türkdilli xalq olan Azərbaycan xalqına məxsus olan torpaqların, özü də vandal ermənilər tərəfindən altı üstünə çevrilən torpaqların yenidən qurulması, infrastrukturunun bərpası üçün Qərb qəti şəkildə yardım haqqında düşünmür belə. Yaxud, öz haqq işi, tarixi ədalətin bərpası uğrunda mücadilə edən Azərbaycana müharibə dönəmində həmin o Qərb Ukraynaya etdiyi yardımın, dəstəyin bir qismini belə göstərmədi, çünki bura da bir türk coğrafiyasıdır. Elə isə türkdilli xalqların məskunlaşdığı Orta Asiya haqqında da Qərbin narahat olacağı qətiyyən inandırıcı görünmür. Buna baxmayaraq, hər bir halda, yəni səhv etsə belə Rusiya elə hesab edir ki, proseslər Qərbin diqqətini az da olsa yayındıra bilər və bu baxımdan Orta Asiyadakı mövcud gərginliyin onların maraqlarına xidmət etdiyi düşünülür.

Təbii ki, Orta Asiyadakı etnik qarşıdurmalar, eləcə də sosial narazılıqlar Qərbin diqətini yayındırmasa da, Qərb bundan narahat olmasa da, sosial etirazlardan xal qazanmağı hədəfləyəcəyi istisna edilə bilməz. Ən çox Cənubi Qafdazda Qərbin bu şəkildə maraqlarının olduğunun bu zamana qədər dəfələrlə şahidi olmuşuq və bu gün də Orta Asiyada bu maraqların olmayacağını düşünmək belə mümkün deyil. Onu da nəzərə almaq lazımdır ki, Qərbin regionlara hər hansı formada müdaxilə ssenariləri insan hüquqları məsələlərinə istinadla hazırlanır. Orta Asiyada da məhz sosial etirazlar bu mənada Qərb üçün arzuolunan məqamdır və bu da həmişəki kimi işinə yarayır. Bu baxımdan deyə bilərik ki, Orta Asiyada cərəyan edən hadisələrin sadalanan pərdəarxası məqamları təkzib edilə bilməz.

***İnam Hacıyev***

# "Ermənistan ərazisindəki maddi-mənəvi irsimizi qəsdən məhv edir"



"Tarixi Azərbaycan torpaqları üzərində yaradılmış indiki Ermənistan dövləti ərazisində maddi-mənəvi irsimizin sistemli şəkildə qəsdən məhv edilməsi prosesi bu gün də davam edir". "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, İrəvandakı Azərbaycanın nişanəsi olan son abidə Təpəbaşı məhəlləsinin tamamilə məhv edilməsi istiqamətində atılan addımlar bu siyasətinin növbəti təzahürüdür. Bütün dünyanın gözü qarşısında ermənilərin İrəvanın, Qərbi Zəngəzurun, Göyçə mahalının və s. ərazilərimizin tarixini saxtalaşdırması, xalqımızın mirası sayılan maddi mədəniyyət irsimizin bir hissəsini məhv etməsi, digər bir qismini isə öz adına çıxması Azərbaycan cəmiyyətində hiddətlə qarşılanır: "Xalqımızda ikrah hissi oyadan digər bir məqam isə bu məsələdə Vətən Müharibəsindəki Zəfərimizdən sonra azad edilmiş ərazilərimizdə qondarma "erməni tarixi abidələrinin qorunmasının vacibliyi"ni önə çəkərək hər fürsətdə Azərbaycan dövlətinə təzyiq göstərməyə çalışan beynəlxalq təşkilatlar və dövlətlərin sərgilədikləri yanaşmadır. 30 illik işğal dövründə Azərbaycanın müraciətlərini heçə sayaraq keçmiş işğal olunmuş ərazilərimizdəki tarixi irsimizin araşdırılmasına yox cavabı verən YUNESKO indi "erməni abidələri"nin araşdırılması adı altında bölgəyə səfər etmək istəyir. Hər fürsətdə bu "tələb" gündəmə gətirilir. Ermənilərin Azərbaycanla sülh danışıqlarından yayınmaq üçün onların əlinə növbəti bəhanə verilir. Halbuki, Təpəbaşı məhəlləsinin timsalında biz Ermənistan ərazisindəki tarixi abidələrimizin məhv edilməsi siyasətinə qarşı bu dövlətlər və təşkilatlar tərəfindən hansısa etiraz bəyanatı və ya fikir səsləndirildiyinin şahidi olmuruq. Bu bir daha göstərir ki, Ermənistanın tarixi saxtalaşdırma siyasəti onun digər dövlətlərdəki himayədarları tərəfindən tam dəstəklənir. Bu ikili standarta son qoyulmalı və xalqımızın son iki yüz ildə məhv edilmiş maddi-mədəni irsi ilə bağlı real hüquqi qiymət verilməlidir".

***Gülyana***

# Yanacaqdoldurma məntəqələrində benzin niyə yoxa çıxıb?

## İQTİSADÇI AÇIQLADI



"Ölkədə yanacaq təchizatını həyata keçirən qurumların bu və ya digər formada bilavasitə məhsulu olan subyektlərin açıqlamalarında birmənalı olaraq qeyd olunur ki, ümumiyyətlə yanacaqla bağlı problem yoxdur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, amma müşahidələr və real mənzərə onu göstərir ki, ayrı-ayrı rayonlarda bəzi hallarda müəyyən yanacaq növlərinin satışı ilə bağlı bəzi məhdudiyyətlər, müəyyən yanacaq növlərinin olmaması ilə bağlı bildirişlər məlumatlar daxil olur: "Bu da təbii ki, əbəs yerə deyil. Düşünürəm ki, bu problem təkcə təchizatla bağlı olan problemdən qaynaqlanır. Çünki digər rayonlarda varsa, o birilərində yanacaq yoxdursa, bu təchizatla bağlı problemdir. Amma hər hansı bir ciddi şəkildə yanacaq qıtlığının olacağını düşünmürəm".

***Arzu Qurbanlı***

# Koronavirusun mənşəyi: təbiət, yoxsa laboratoriya?

**Alimlərin müxtəlif versiyaları var, qərəzli siyasi yanaşma da az deyil...**




**2020-ci ilin mart ayından Azərbaycanda elan edilən "COVİD-19" markalı, tibbi adı koronavirus olan pandemiyanın yayılması səbəbindən baş verən məhdudiyyətlər bu gün az da olsa qalmaqdadır. Yayın gəlişi ilə yoluxma sayı minimuma enən virus bu günlərdə yenidən özünü göstərməyə başlayıb. Bu il havaların nisbətən sərin keçməsi də yoluxma şəraitini münbitləşdirir. Pandemiyanın dünya ölkələrinə vurduğu ziyan hələlik tam olaraq hesablanmasa da az olduğunu da düşünmürük.**

Bəs, elmə çoxdan məlum olan bu virusun yeni ştamı harada və necə yaranıb? Necə olub ki, yüz illərlə yoluxmaqda davam edən virus yeni adla peyda olaraq dünyanı yerbəyerindən etdi? Niyə bu xəstəliyə müstəqil məkildə müqavimət göstərən insan orqanizmi birdən-birı təslim oldu, aciz duruma düşdü? Bəli, burada bir az fikirləşməyə dəyər. Əcəba, son vaxtlar daha çox istehlak etdiyimiz geni dəyişdirilmiş qidaların (GMO) orqanizmimizdə yaratdığı boşalma səbəbindəndirmi, yoxsa immunitetimizə birbaşa zərbə üçün hesablanmış və hazırlanmış dərman vasitələrinin təsirindənmi bu hala düşmüşük? Bütün versiyalar qəbulediləndir, nə qədər ki, koronavirusun yaranma səbəbləri dəqiq bilinməyib, nə qədər ki, orqanizmimizə təsiri tam olaraq öyrənilməyib. Amma, olan budur ki, koronavirus başəriyyəti tam olaraq təslim etmədən ona qarşı önləyici mexanizmlər işə salındı və qısa müddət ərzində insanlar virusa qarşı vaksinlərlə təmin edildilər.

Qayıdaq virusun son ştamının harada və necə hazırlanmasına. Ştam morfoloji və fizioloji xüsusiyyətləri öyrənilmiş müəyyən mikroorqanizm növünün təmiz becərilməsi, yetişdirilməsi deməkdir. "Stam" alman sözü olub, "gövdə" mənasındadır. Belə olan halda yenə yuxarıdakı sualımızı təkrar etmək istəyirik. Yeni növ koronavirus ştamı laboratoriyadamı hazırlanıb, yoxsa təbiətin bizə göndərdiyi bəladır?

Birinci versiyaya görə, koronavirus laboratoriya mənşəlidir. Yəni, seleksiya yolu ilə və müəyyən məqsədlər üçün hazırlanıb. Bunu "The Lancet"-dən pandemiyanın səbəblərini araşdırmaq üzrə komissiyanın rəhbəri, Kolumbiya Universitetinin professoru Cefri Saks rəsmən təsdiqləyib. Onun sözlərini "The Epoch Times" qəzetinin "Truth Over News" layihəsi sitat gətirib.

## Qərb alimləri koronavirusun laboratoriya mənşəyini rəsmən tanıyıblar

Sacks İspaniyada keçirilən son konfransda virusun mənşəyi haqqında danışıb. Layihənin müəllifləri bildiriblər ki, "The Lancet" komissiyasının nümayəndəsi onun yaradılmasının vacib detallarını göstərib. "Üstəlik, o, virusu yaratmaq üçün Amerika biotexnologiyasından istifadə edilib", deyə layihə rəhbəri bildirib.

O qeyd edib ki, ÜST nümayəndəsi Tedros Adhanom Qebreyesusun açıqlamalarından sonra Saksın sözləri diqqətə alınmayıb. O, avropalı siyasətçiyə Wuhan laboratoriyasının alimləri tərəfindən koronavirusun mümkün yaradılması barədə danışıb. Ötən il ABŞ hökuməti də bu versiyaya dair sübutların olduğunu bildirmişdi. Koronavirusun görünüşünün başqa bir versiyası deyir ki, o, 2019-cu ildə ABŞ-da yaradıla bilərdi.

Virusoloq, Moskva Dövlət Universitetinin professoru, biologiya elmləri doktoru Aleksey Aqranovski bildirib ki, COVID-19-un texnogen və təbii mənşəli versiyaları yalnız dolayı sübutlarla təsdiqlənir: "Alimlərin çoxu yalnız versiyalardan birini dəstəkləmir, əksinə, istənilən qəti mühakimələrə ehtiyatla yanaşırlar".

Başqa bir biologiya elmləri doktoru, Novosibirsk Dövlət Universitetinin (NSU) Virusologiya laboratoriyasının rəhbəri Sergey Netesov da bu barədə danışaraq bildirmişdi ki, elmi ictimaiyyətdə COVID-19-un mənşəyi ilə bağlı iki əsas fərziyyə var - təbii mənşəli və laboratoriyada hazırlanmış.

Aqranovskinin sözlərinə görə, alimlərə virusun təbii mənşəyini sübut edən aralıq variantları haqqında məlumat və ya laboratoriyada SARS CoV-2-nin inkişafı ilə bağlı konkret məlumat lazımdır: "Sonra virusun mənşəyini daha dəqiq mühakimə etmək mümkün olacaq".

Fundamental və Tərcümə Tibb üzrə Federal Tədqiqat Mərkəzinin (FRC FTM) xüsusilə təhlükəli infeksiyalar laboratoriyasının rəhbəri, virusologiya üzrə professor Aleksandr Çepurnovun da öz versiyası var. O, bildirib ki, virusun süni mənşəyinə inanmır. Bununla belə, o, virusun fərqli şəraitində dəyişməsinin hələ də mümkün olduğunu açıqlayıb: "Mən tam olaraq təsəvvür edirəm ki, Amerika tərəfinin çinliləri müxtəlif qrantlarla fəal şəkildə həvəsləndirdiyi bu virusun təsir dairəsini öyrənməklə, elm adamları bu prosesdə insan reseptorunda "otura" biləcək variantı seçə bildilər. Viruslarla işləyərkən kimsə təsadüfən yoluxa bilər və virus insanlar arasında yayıla bilər".

Rusiyalı daha bir alimin açıqlaması maraq doğurur. Ali İqtisadiyyat Məktəbinin Səhiyyə İqtisadiyyatı İnstitutunun direktoru Larisa Popoviçin sözlərinə görə, virusun süni mənşəyi ilə bağlı məlumatları təsdiqləmək üçün konkret arqumentlər lazımdır: "Viruslar təbii şəkildə yaranır. İqlim dəyişikliyi və ekosistemlərdə baş verən anomaliyalar virusların mutasiyasını tezləşdirə və sürətləndirə bilər. Sui-qəsd, yəni virusun bilərəkdən yayılması nəzəriyyələri isə cəfəngiyatdır".

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Qebreyesus** xatırladıb ki, COVID-19 bütün planet üzrə yürüşünü davam etdirir və həftədə 50 min insanın ölümünə səbəb olur. ÜST-ün baş direktorunun sözlərinə görə, son vaxtlar qlobal miqyasda COVID-19-dan ölüm nisbəti azalmaqdadır. Bu günkü rəqəmlər ötən ilin indiki vaxtına görə ən aşağı göstəricidir, baxmayaraq ki, hələ də qəbuledilməz dərəcədə yüksəkdir - həftədə 50,000 ölüm. Həqiqi rəqəm daha çox ola bilər. Eyni zamanda, bir çox ölkələrin yeni xəstəliklər və ölüm dalğası ilə üzləşdiyi Avropa istisna olmaqla, bütün regionlarda ölüm nisbəti azalır.




Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri bildirib ki, koronavirusdan ən yüksək ölüm səviyyəsi peyvəndlərin aşağı olduğu ölkələrdə müşahidə olunur. Bu günə qədər dünyanın 56 ölkəsi cari ilin sentyabr ayının sonunadək əhalinin 10%-lik peyvənd edilməsi məqsədinə nail ola bilməyib. Onların əksəriyyəti Afrika ölkələridir. Eritreya və KXDR kimi ölkələr ümumiyyətlə, immunizasiya kampaniyasına hələ də başlamayıb.

Mütəxəssislər "COVİD-19" virusunun mənşəyinin sirr olaraq qalacağından qorxurlar. İsveçrə virusoloqları, virusun laboratoriya qəzasının nəticəsi ola biləcəyi tezisini vaxtından əvvəl tərk etməmək barədə xəbərdarlıq edirlər. Ancaq bunun doğru olub-olmaması sualına hələ də cavab vermək şansımız olan fürsət pəncərəsi tezliklə bağlanacaq. Ümumdünya Səhiyyə Təşkilatının "COVID-19" pandemiyasının səbəblərini araşdırmaq tapşırığı alan elm adamları bu yaxınlarda "Nature" jurnalında dərc olunan məqalədə məsələyə aydınlıq gətirmək üçün vaxtımızın çox qalmadığı barədə xəbərdarlıq ediblər. Cenevrə İnkişaf etməkdə olan Viral Xəstəliklər Mərkəzinin virusoloqu və direktoru İzabella Ekkerle qeyd edib ki, indi pandemiyanın əsl səbəbindən daha çox günahkarı tapmaq daha vacibdir.

Digər məşhur isveçrəli virusoloq, EPFL-in xarici linki Didier Trono da hesab edir ki, problem indi elmi deyil, daha çox siyasidir. Bununla belə, o, həqiqətən nə baş verdiyini birmənalı şəkildə öyrənmək perspektivinə bədbindir: "Biz son cavabın elmi çətinliklər



və potensial siyasi nəticələrə görə alınmayacağına hazır olmalıyıq, lakin tədqiqatın bu mərhələsində hələ də inanırıq ki, heyvandan insanlara ötürülmə variantı ən çox ehtimal olunan variant hesab edilsin".

## Şəffaflığın olmaması

"COVID-19" virusunun mənşəyinin axtarışı mürəkkəb və mübahisəli bir prosesdir. Virusun bütün dünyaya yayıldığı ölkə olan Çin əvvəlcə düyməläri basdı və əməkdaşlığa o qədər də həvəs göstərmədi. Son vaxtlara qədər Pekin dünya ictimaiyyətinə öz məlumatlarının və virus nümunələrinin tam çeşidinə girişi inadla rədd edirdi.

Ancaq bu yaxınlarda ÜST rəhbəri virusun səbəblərini dərindən araşdırmaq üçün Çinə müstəqil ekspertlər qrupunu göndərməsinə mane olan "şəffaflığın olmaması" olduğunu söyləyib. Bu missiyanın ardınca dərc edilən ÜST hesabatına görə, Cenevrədən olan nümayəndələr qrupu ümumiyyətlə, ilk 14 günü Wuhanda karantində keçirərək çinli mütəxəssislərlə yalnız video söhbət vasitəsilə əlaqə saxlaya biliblər. Nəticədə, çinlilər avropalı mütəxəssislərə yalnız "sanitariya məsafəsinə riayət etmək" və "sağlamlıq vəziyyətinə nəzarət etmək" kimi qaydalara əməl etməyi məsləhət görüblər. Bir sözlə avropalıların "ağzını yelə veriblər".

ÜST-nin Çindəki elm missiyasına rəhbərlik edən danimarkalı alim Peter Ben Embarek bu yaxınlarda Çin rəsmilərinin onun komandasının üzvlərinə təzyiq göstərdiyini etiraf edib. Bildirib ki, onlar bu nəzəriyyədən əl çəksinlər.

Bütün bu açıqlamalar və "natamam məlumatlarla" ÜST-ə üzv olan bir neçə dövlət, o cümlədən ABŞ, Böyük Britaniya, Kanada və Avstraliya qərargahı Cenevrədə yerləşən bu təşkilatı sərt tənqid ediblər. Elmi ictimaiyyət də tezliklə öz sözünü deyib. Belə ki, dünyanın hər yerindən olan 17 ekspert, o cümlədən Bazel Universitetinin professoru və virusların təkamülü üzrə mütəxəssis Richard Neher "External link, ScienceExternal reference" jurnalında dərc olunan açıq məktubda pandemiyanın mənşəyi və səbəbləri barədə "daha obyektiv və şəffaf şəkildə" danışıblar. Məktubu imzalayan alimlər "hər iki nəzəriyyənin (laboratoriya qəzası və virusun heyvandan insana ötürülməsi) düzgün nəzərə alınmadığını və təhlil edilmədiyini" xüsusi olaraq qeyd ediblər: "Biz hər iki fərziyyəni çox ciddi qəbul etməliyik, heç olmasa kifayət qədər ilkin məlumatımız olana qədər".

Ümumilikdə ÜST virusun şübhəli ev heyvandan (kiçik at nalı yarasası və ya Rhinolophus ferrumequinum) insanlara ötürülməsinin dörd mümkün yolunu müəyyən edib:

**1)** birbaşa təbii fokal (zoonoz) yayılma - yarasalardan birbaşa insanlara, ən çox ehtimal olunan ssenari hesab olunur;

**2)** "ara ev sahibi" vasitəsilə - yarasalardan başqa heyvana və sonra insanlara, bu da mümkün versiyalar siyahısından çıxarılmır;

**3)** qida (trofik) zənciri boyunca - orqanizmlərin qrupları (bitkilər, heyvanlar, göbələklər və mikroorqanizmlər) arasında əlaqələr sistemi, burada maddə və enerji bəzi fərdlərin başqaları tərəfindən yeyilməsi ilə ötürülür (bu mümkün səbəb hesab olunur);

**4)** laboratoriya qəzası (bu ssenari rəsmi olaraq son dərəcə qeyri-mümkün hesab olunur).

"Aralıq ev sahibinin" olması fərziyyəsi üzərində çox dayanılır. Elm adamları hazırkı "Sars-Cov-2" ilə genetik olaraq yaxından əlaqəli olan yarasa koronavirusunu bilsələr də, bu iki virus bir neçə onilliklərlə bir-birindən ayrılır. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, bu hal bir növ "itmiş halqa"nı göstərir, yəni başqa növə aid hansısa heyvan orqanizmi olmalı idi ki, bu da sonda insanlarla insanlar arasında "körpü" rolunu oynasın, məsələn, yarasalar.

"Bəlkə də nə baş verdiyini heç vaxt təfərrüatı ilə bilməyəcəyik" deyən İzabella Ekkerle virusun mənbəyini tapmağın çətin və vaxt aparan bir iş olduğunu deyib. Virusoloq "Axtarış başa çatana qədər yoluxmada aralıq olaraq iştirak edən ev heyvanları yox ola bilər", deyib.

İndi təbiətdə dolaşan demək olar ki, bütün viruslar heyvanlardan insanlara və əksinə ötürülən patogenlər sinfinə aid olan zoonotik təbiətlidir. Meşələrin qırılması zamanı və ya məsələn, sənaye kənd təsərrüfatı strukturlarının inkişafı nəticəsində heyvanların və bitkilərin təbii yaşayış yerlərinin aktiv antropogen məhvini nəzərə alsaq, bu fenomen getdikcə daha geniş yayılacaqdır. Eyni zamanda, laboratoriyalarda "qəzalar" və "fəlakətli sızmalar" da istisna deyil.

**V.VƏLİYEV**

# İrəvanda memarlıq abidələrimizin yeganə şahidi - Təpəbaşı məhəlləsi

Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənilər vəhşilik missiyalarını həyata keçiriblər. Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələri - Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".











## ERMƏNİ VANDALLARI TARİXİ-MEMARLIQ ABİDƏLƏRİMİZİ YER ÜZÜNDƏN SİLDİLƏR

Qərbi Azərbaycan ölkəmizin qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bir dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı əsl müsəlman şəhəri kimi təsvir etmişlər. İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvansaralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlığı üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. XIX əsrin sonları, XX əsri əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. 1924-cü ildə İrəvanın baş planı hazırlanaraq həyata keçirilməyə başlandıqdan sonra şəhərdə mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq baxımından əhəmiyyət kəsb edən bütün abidələrini bir-birinin ardınca yox etdilər ki, gələcəkdə İrəvanı erməni şəhəri kimi təqdim edə bilsinlər. XX əsrin 30-40-cı illərində İrəvan şəhərinin mərkəzindəki azərbaycanlı məhəllələri mövcudluğunu qoruyub saxlayırdı.

## MİLLİ-MƏDƏNİ, TARİXİ İRSİNİN SONUNCU QALIĞI TƏPƏBAŞI MƏHƏLLƏSİ

Bu gün qədim Azərbaycan şəhəri olan İrəvanda sağ qalan yeganə şahid - Təpəbaşı məhəlləsi məhv edilmə təhlükəsi ilə üzləşib. Təpəbaşı məhəlləsinin memarlıq abidəsi kimi mühüm əhəmiyyət kəsb edir. İrəvan şəhərində olan Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi də acınacaqlıdır. Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərin silinməsi məqsədi ilə təcavüzkar siyasət davam etdirilir.

Artıq Təpəbaşı məhəlləsinin son qalıqlarının da sökülərək, məhəllənin tamamilə məhv edilməsi təhlükəsi barədə məlumatlar əldə olunub. Qeyd edək ki, Təpəbaşı qədim İrəvan şəhərinin tarixi məhəllələrindən biri olub, hazırkı İrəvan şəhərinin də tarixi nüvəsini təşkil edir. Ermənilər tərəfindən aparılan, 100 ildən çox davam edən və sistemli xarakter daşıyan söküntü proseslərinə baxmayaraq, onun son qalıqları günümüzə qədər gəlib çıxıb. Tarixi abidələrlə zəngin, görkəmli azərbaycanlıların yaşadığı bu məhəllənin müasir zamanda müqəddəratı ilə bağlı ciddi narahatlıq var. Bu məhəllədə Təpəbaşı məscidi yerləşir. Bunu İrəvan şəhər idarəsinin üzvü, İrəvan xanlarının nəslindən olan Abbasqulu xan İrəvanski tikdirmişdir.

## UNESCO ERMƏNİSTAN ƏRAZİSİNDƏ OLAN AZƏRBAYCAN ABİDƏLƏRİNİN AQİBƏTİNƏ LAQEYDDİR

İrəvandakı Təpəbaşı məhəlləsində xalqımızın irsinə qarşı mədəni soyqırımı ilə bağlı Azərbaycanın elm və ictimaiyyət xadimləri UNESCO-ya müraciət etmişdilər. 2022-ci il 4 fevral tarixində Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin videoformatda görüşünün nəticəsi olaraq həm də UNESCO-nun Ermənistana və Azərbaycana missiyalarının həyata keçirilməsi gözlənilir. UNESCO indiyə kimi bir dəfə də olsun Ermənistan ərazisində olan Azərbaycan abidələrinin aqibəti ilə maraqlanmayıb. Tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycanda çoxlu sayda tarixi-memarlıq abidəsi, karvansaralar, imarətlər, məscidlər, mavzoleylər, qəbiristanlıqlar, məqbərələr, qəbirüstü abidələr və s. ermənilər tərəfindən viran edilib. UNESCO və digər beynəlxalq təşkilatlar Ermənistanı bu əməllərinə görə cəzalandırmalıdır. Azərbaycan abidələrinin dağıdılması, azərbaycanlıların qəbiristanlılarının yer üzündən silinməsinə dünya laqeyd qala bilməz.

Qarabağda və Qərbi Azərbaycanda tarix və mədəniyyət abidələrinin dağıdılması, ermənilərin özbaşınalığı "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına ziddir.

## "ERMƏNİSTANIN MƏQSƏDİ ƏSRLƏR BOYU HƏMİN ƏRAZİLƏRDƏ YAŞAMIŞ AZƏRBAYCANLILARIN İZİNİ SİLMƏK OLUB"

Prezident İlham Əliyev çıxışlarında ermənilərin vandallıq əməllərini ifşa etmişdir. "İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib", - deyərək bildirib ki, Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub.

Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesinin 90-cı illərdən sonra geniş vüsət alıb. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpağıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var. Utopik fikirlərlə yaşayan Ermənistan öz xülyalarından əl çəkərək, tarixi həqiqətləri qəbul etməlidir. Sanki düşüncələri ilə öz dünyalarında "Böyük Ermənistan" yaradırlar. Sənəd, tarix və faktlar bu "xalq"a yad olan məfhumlardır. Nə qədər belə yol getsələr də "DƏMİR YUMRUQ" onlara həqiqət yolunu göstərəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “Təpəbaşı məhəlləsi Yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir”

“Tarix faktlara əsaslanır və əsla saxtakarlığı sevmir. Bu həqiqəti Azərbaycan dövləti ən yüksək tribunalardan Ermənistana və ona zaman-zaman havadarlıq edib azərbaycanlılara və türklərə qarşı soyqırımı siyasəti həyata keçirməsinə dəstək olan dövlətlərə çatdırsa da, qarşı tərəflər laqeyd yanaşmaları ilə diqqəti özlərinə çəkməyi yeganə çıxış yolu hesab edirlər. Azərbaycanla yanaşı, qardaş





Türkiyəyə qarşı da əsassız ”erməni soyqırımı” iddiasını irəli sürən Ermənistana dost ölkənin cavabı hər kəsə məlumdur: Tarixçilərdən ibarət Türkiyə və Ermənistan komissiyası yaradılsın, bütün dünya arxivləri açılsın. Ermənistan rəsmiləri buna cavablarında ”Bununla tarixçilər deyil, siyasətçilər məşğul olmalıdır” deməklə fakt qarşısında nə qədər aciz durumda olduqlarını təsdiqlədilər. Təəssüf doğuran hal budur ki, Ermənistanın bu yanlış yanaşmasına onun dəstəkçiləri də tərəfdar çıxdılar. Ermənistan və onun havadarları bu acizliklə, qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış etməklə, tarixi və dini abidələrimizi yerlə-yeksan edib bu torpaqları erməniləşdirmə siyasəti aparmaqla nəyəsə nail olmağın mümkünsüzlüyünün 44 günlük İkinci Qarabağ müharibəsində şahidi oldular. İnformasiya-kommunikasiya texnologiyaları əsrində yaşayırıq. Bu əsrdə danışan, Zəfər çalan yalanlar deyil, faktlar, tarixi həqiqətlər olur.” Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik ”Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə azərbaycanlılara və türklərə qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər: ”Artıq həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Tarixi faktlar bu reallığı da təsdiqləyir ki, Ermənistan adlı uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına bəraət qazandırmaq məqsədilə erməni xalqının olmayan tarixinin süni surətdə şişirdilməsinə yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırılmışdır. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, tarixi memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Elə o zamanlardan başlayaraq ermənilərə göstərilən dəstəklər bu günə qədər davam etməkdədir.”

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, 1988-ci ildə ermənilərin torpaq iddiasının yenidən baş qaldırması nəticəsində yaranan, hazırda tarixə qovuşan Qarabağ münaqişəsinin həlli prosesinin 30 il uzanmasında da dünyanın ikili standartlara əsaslanan siyasəti, ermənilərin başına çəkilən sığallar əsas rol oynadı: ”BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə erməni işğalçılarının Azərbaycan ərazilərini qeyd-şərtsiz azad etmələri tələb edilsə də, ermənilər onların başına çəkilən sığal nəticəsində bu qərar və qətnamələrə məhəl qoymadılar, ”evin ərköyün” uşağı” kimi istədikləri zaman danışıqlar prosesinə qatıldılar, istəmədikləri zaman da müxtəlif bəhanələrlə bundan yayındılar. Yəni, himayədarlarından aldıqları dəstəklər onlarda ruh yüksəkliyi yaradır, daha böyük iddialarla çıxış etmələrinə rəvac verirdi. Mənfur düşmənin yeni ərazilər uğrunda müharibə planları da bunun təsdiqi oldu. 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsi ermənilərin bu planlarının faş edilməsinə yardımçı olmaqla ədalətin, beynəlxalq hüququn bərpasına yol açdı, dünyaya Azərbaycan xalqı üçün Qarabağ məsələsinin milli qürur məsələsi olduğunu, öz tariximizə, mili-mənəvi dəyərlərimizə, dünənimizə və bugünümüzə nə qədər bağlı xalq olduğumuzu nümayiş etdirdi.”

Vüqar Rəhimzadə diqqəti Azərbaycanın elm və ictimai xadimlərinin iyulun 6-da Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən Təpəbaşı məhəlləsi ərazisində Azərbaycan xalqının mədəni irsinə qarşı həyata keçirilən soyqırımı ilə bağlı UNESCO-nun Baş direktoru Odre Azuleyə ünvanladıqları müraciətə yönəldərək bildirib ki, sənəddə də qeyd olunduğu kimi, UNESCO bütün dünyada bəşəriyyət üçün müstəsna dəyər hesab olunan mədəni və təbii irsin müəyyən edilməsini, qorunmasını və mühafizəsini təşviq etməyə çalışır. Bu, UNESCO tərəfindən qəbul edilmiş müxtəlif konvensiyalarda öz əksini tapıb. Hazırda Ermənistanın paytaxtı İrəvan şəhərində yerləşən maddi-mədəni irs nümunələrinin yaşı heç 200 ilə də çatmır. Dünya ictimaiyyəti isə bundan xəbərsizdir. Bəs nə üçün bu şəhərdə yaşı 200 ilə yaxın və daha çox olan heç bir maddi-mədəniyyət nümunələri yoxdur? Çünki bu abidələr Azərbaycan xalqına məxsus maddi-mədəni irs nümunələri olduğuna, ermənilər tərəfindən məhv edilmiş və günümüzə qədər gəlib çatmamışdır. Müraciətdə bir daha bu həqiqət qurumun diqqətinə çatdırılır ki, İrəvan şəhərinin tarixini bu gün özündə əks etdirən və azərbaycanlıların mədəni irsinin yeganə sübutu olaraq qalan məkan Təpəbaşı məhəlləsidir. Təpəbaşı İrəvan şəhərinin günümüzə qədər gəlib çatmış yeganə tarixi nümunəsidir. Tarixən azərbaycanlıların yaşadığı Təpəbaşı məhəlləsi Yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir.”

YAP Xətai rayon təşkilatının sədri diqqəti xüsusi olaraq bu məqama yönəldib ki, müstəqilliyimizin yenidən bərpasından, daha dəqiq desək, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra tarixi həqiqətlərimiz işıq üzü görməyə, Azərbaycanın haqq səsi dünyaya yayılmağa başladı: ”Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ilk görüşünün ziyalılarla olması da təsadüfi deyildi. Ulu öndər Heydər Əliyev tarixçilərimizin qarşısında tarixin saxtalaşdırılmasına yol verilməməsini əsas tələb kimi qoydu. Son 18 ildən artıq dövrdə bu siyasəti bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev tariximizin qorunmasına, indiki və gələcək nəsillərə çatdırılmasına, ən əsası beynəlxalq ictimaiyyətin qədim tariximizlə bağlı daha dolğun məlumatlar əldə etməsinə geniş imkanlar yaratmaq üçün biri-birindən mühüm addımlar atır. 2018-ci ilin ölkəmizdə ”Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi özündə bu kimi məqamları tam şəkildə ehtiva edir.”

”Tarixi həqiqətlər ermənilərin əsl simasını ortaya qoyur. 44 günlük İkinci Qarabağ müharibəsi ermənilərə və onlara havadarlıq edən dövlətlərə dərs olmalıdır. Dövlət başçısı İlham Əliyevin çıxışlarında yer alan bu hədəfimizi də yada salmaq istərdik: ”Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”, -deyə YAP Xətai rayon təşkilatının sədri bildirib.

Vüqar Rəhimzadə ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı siyasəti həyata keçirmələri ilə yanaşı, Azərbaycan xalqına məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənlərini dağıdaraq viran qoyduqlarını bir daha diqqətə çatdırıb: ”Bunlar bizim mədəni sərvətimiz, milli kimliyimizin təqdimatlarıdır. Ermənilərin bu yolu seçmələri əvvəldə də qeyd etdiyim kimi, hər kəsə məlumdur. Tarixi saxtalaşdırmaqla özlərinə tarix yazan mənfur düşmən milli sərvətimiz olan tarixi və dini abidələri məhv etməklə onların Azərbaycana məxsusluğunu gizlətməyə çalışır. Araşdırmalar nəticəsində erməni vəhşiliklərinə işıq salan çoxlu sayda yeni faktlar və sənədlər toplanıb. Tarixin yaddaşına söykənərək bütün reallıqları dünya ictimaiyyətinə çatdırmaq üçün səylərimizi birləşdirməliyik.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, elm və ictimai xadimlərin UNESCO-nun Baş direktoruna ünvanladıqları müraciətdə yer alan bu həqiqət ümumilikdə dünyaya bir çağırışdır: ”O çağırış ki, Azərbaycan tarixi Zəfəri ilə Ermənistana döyüş meydanında və informasiya cəbhəsində ”Dur!” deməyi bacardı, torpaqlarımızı işğalçılardan təmizlədi, ədaləti bərpa etdi. Bu gün dünyanın aparıcı dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlarına Ermənistana tarixi saxtalaşdırmasına ”Dur!” deməyə çağırışlar edilir. Bu mühüm məqamı da yada salaq ki, 2022-ci ilin 4 fevral tarixində Azərbaycan, Fransa, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurası Prezidentinin videoformatda görüşünün nəticəsi olaraq həm də UNESCO-nun Ermənistana və Azərbaycana missiyalarının həyata keçirilməsi planlaşdırılıb. UNESCO-nun bu missiyasını yerinə yetirəcəyinə ümid edirik.”

## “Azərbaycan tərəfi bu atəşin qarşısını layiqincə alır”

“Ermənistan tərəfi son zamanlar mütəmadi olaraq Kəlbəcər istiqamətində atəşkəsi pozur. Əlbəttə ki, çox maraqlı bir sual yaranır ki, ordusu iflic vəziyyətdə olan və hazırda müharibə etməyə qadir olmayan Ermənistan ordusu bu təxribatları niyə törədir? Onların məqsədləri nədən ibarətdir?”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının



müşaviri, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsinə qədər olduğu kimi bu gün də görünən odur ki, eyni tendensiya davam edir: ”Azərbaycana təzyiq istiqamətində müəyyən xarici qruplar tərəfindən erməni generallarının vasitəçiliyindən istifadə edilir. Ağlı başında olan erməni əsgəri çox yaxşı bilir ki Azərbaycan əsgəri qarşısında tir-tir əsir. Sadəcə olaraq əmr elə bir yerdən gəlir ki, onlar çıxılmaz vəziyyətdə qalırlar. Əgər, Paşinyan bu tendensiya ilə davam etsə, biz Kəlbəcər yaxınlığında yerlərin Azərbaycan Ordusunun nəzarətinə keçəcək. Çünki buradan geniş şəkildə təhdid və provakasiyalar var.

Ermənistan tərəfindən delimitasiya və demarkasiya ilə bağlı hər hansı bir addım atılmayıb, əksinə Azərbaycana qarşı tərəfdən atəş edilir. Əgər, əvvəllər Azərbaycana təhdid Qarabağdakı erməni terrorçularından gəlirdisə, bu gün bu təhdid Azərbaycan-Ermənistan arasındakı sərhəddə və digər bölgələrdən gəlir. Azərbaycan tərəfi bu atəşin qarşısını layiqincə alır”.

***Arzu Qurbanlı***

## Orta Asiyada baş verən olaylarda kimlər maraqlıdır?

“Ümumiyyətlə qeyd etmək lazımdır ki, nə dünyamız, nə də region heç vaxt bu qədər gərgin bir dövr və vəziyyətdə olmayıb. Bu gün həqiqətən də geosiyasi vəziyyət kifayət qədər mürəkkəb və gərgindir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, ekspertlərin yanaşması müxtəlifdir: ”Yeni, bunu hansısa dövlətlər və onların cəhdləri ilə əlaqələndirənlər var. Hesab edirəm ki, biz prosesə baxanda bölgədə cərəyan edən hadisələri müşahidə edib qiymət verməliyik”. Deputat sözlərinə belə davam edib: ”Konkret fikir söyləmək mümkün deyil. Çünki burada müxtəlif ölkə və dövlətlərin maraqları var. Ona görə də məsələyə bir aspektdən yanaşmaq düzgün deyil. Bütün bölgə təhlil olunmalıdır.

Nəzərə almaq lazımdır ki, bütün bölgələrdə bu və ya digər formada bu proseslər gedir. Bir sıra dövlətlər digərlərində sabitliyin pzoulmasına çalışırlar. Burada da hər bir dövlətin üzərinə ciddi məsuliyyət düşür ki, siyasətlərində diqqətli olsunlar”.

***Ayşən Vəli***

TƏHLİL + AKTUAL

# İcbari tibbi sığorta insan amilinə verilən dəyərdir

**İnsan üçün həyatda sağlamlıqdan gözəl nemət ola bilməz. Sağlamıqsa, ayaq üstündəyik, evimizdə, işimizdə, cəmiyyətdəyik. Onların hər birində üzərimizə düşən vəzifənin icrasını uğurla həyata keçirənlərik. Yox, sağlam deyiliksə, təbii ki, evdə də, işdə də, cəmiyyətdə də faydalı ola bilməyəcəyik. Bu səbəblərdən də sağlamlıq insan üçün vacib amildir.**

Təbii ki, sağlamlığımız birbaşa özümüzdən asılı olsa da, yəni sağlam həyat tərzi yaşamaqla, düzgün qidalanmaq, vaxtlı-vaxtında tibbi yoxlamalardan keçməklə bunu qoruyub saxlaya bilriksə, lakin bəzən gözləmədiyimiz halda hansısa bir xəstəlik qapımızı döyür, bu çağırılmamış qonaqla necə rəftar etmək lazım gəldiyini bilmədiyimiz üçün səhiyyə ocaqlarına üz tutmalı oluruq. Bəs biz gözləmədiyimiz halda müalicə olunmağa hazırıqmı? Elə əsas məsələ də budur. Xeyr, əksəriyyətimiz buna hazır deyilik. Elə bu səbəbdən də müəyyən çətinliklərlə üz-üzə qalırıq. Maliyyə cəhətdən sıxıntılarımız zaman-zaman müalicələrimizin gecikməsi, ağırlaşma hallarının çoxalması və həyatımızı itirməyimizlə nəticələnib. Artıq ölkəmizdə tətbiq olunan icbari tibbi sığorta bu kimi hallara son qoyacaq. İcbari tibbi sığorta vətəndaşların mənafeyinə yönəlmiş, onların keyfiyyətli tibbi xidmət və dərmanlarla təmin olunmasına yardım edən bir sistemdir. Bu sistemin həyata keçirilməsi ilə insanların hər hansı bir xəstəliyi vaxtında aşkar edilir, onlar çox xərc çəkmədən müalicə oluna bilirlər.

## İcbari tibbi sığorta-sağlam həyat

Səhiyyə sahəsi daim milli sosialyönümlü siyasətin prioritetləri arasında mühüm yer tutub. Bu sahəyə dövlət tərəfindən əhəmiyyətli sərmayə qoyuluşu, səhiyyədə texnoloji innovasiyaların və müasir müayinə-müalicə üsullarının tətbiqi ölkəmizdə yüksəkkeyfiyyətli tibbi xidmətlərin göstərilməsinə imkan yaradıb. Əhalinin artmaqda olan tibbi xidmət ehtiyaclarını qarşılamaq və səhiyyənin uzunmüddətli inkişafına nail olmaq məqsədilə bu sahədə dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması və mövcud resursların daha səmərəli istifadəsi tələb olunur. Bütün bunlar isə, təbii ki, əhalinin sağlamlığına hesablanmış tədbirlər, insan amilinə verilən dəyərdir.

İcbari tibbi sığortanın ölkəmizdə də həyata keçirilməsi məqsədilə hələ 1999-cu ildə "Tibbi sığorta haqqında" Qanun qəbul olunub. Bu məqsədlə 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi də yaradılıb və 2016-cı ilin dekabrında onun strukturu təsdiq edilib. 2008-ci ildə "Tibbi sığorta haqqında" Qanuna müəyyən əlavə və dəyişikliklər olunub və son vaxtlarda onun tətbiqi istiqamətində daha aktiv addımlar atıldığının şahidi oluruq. İcbari və könüllü şəkildə həyata keçirilən icbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla bərabər, həm də əhalinin uyğun həcmdə tibbi və dərman yardımı almasına təminat verən sığorta növüdür. İcbari tibbi sığorta səhiyyəyə sərf edilən vəsaitlərin səmərəli cəmləşdirilməsinə, bu sahəyə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinə, dövlət vəsaitlərinin səmərəli istifadə edilməsinə, əhaliyə müasir və keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsinin stimullaşdırılmasına şərait yaradır.

İcbari tibbi sığorta vətəndaşların tibbi xidmətlərə əlçatanlığını və keyfiyyətini artıraraq səhiyyə sisteminin maliyyə potensialını gücləndirmək əhəmiyyəti daşıyır. Bu, dünya səhiyyə sistemində geniş yayılmış tibbi xidmətlər modeli olmaqla bərabər, insanların xəstələnmədiyi hallarda da müəyyən fondlara vəsait keçirməsi ilə şərtlənir. Bunda isə əsas məqsəd səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirməklə əhaliyə daha etibarlı, keyfiyyətli və səmərəli tibbi xidmətlər göstərilməsini təmin etməkdir. Çünki məhz bu yolla xəstəliyi olan insanlar müalicə ala bilir və beləliklə də onlar bir-birlərinə qarşılıqlı yardım etmiş olurlar.

İCBARİ TİBBİ SIĞORTA

Dünyanın əksər ölkələrində çoxdan həyata keçirilən bu sistemin respublikamızda da bir neçə ildir, tətbiqinə başlanılıb. Söz yox ki, Azərbaycan vətəndaşları həmin sistemdən istifadə etdikcə yaxın gələcəkdə onun bütün yaş qrupundan olan insanlar, xüsusilə də uşaqlar üçün nə dərəcədə faydalı olduğunu görəcəklər. Nəticədə icbari tibbi sığorta sağlam həyata, xəstəliklərin vaxtında aşkarlanmasına, müalicəsinə, yüksək vəsait xərcləmədən sağlamlığımıza qovuşmağımıza hesablanmış sistemdir.

## İcbari tibbi sığortanın ölkəmizdə tətbiqinə zaman özü imkan verməli idi

Bir neçə il öncələrə kimi xarici ölkələrə müalicə üçün getdiyimizdə oradakı xəstəxanalarda sığorta ilə müayinə və müalicə olunan xəstələrlə söhbət etdikdən sonra gileylənməyə başlayırdıq ki, nə üçün bizim ölkəmizdə bu sistem tətbiq olunmur. Lakin məsələnin digər tərəfini fikirləşmirdik ki, axı bizim ölkəmiz buna hazır deyil. Çünki üz tutduğumuz o ölkələrdəki kimi bizim müstəqilliyimizin yaşı çox deyildi. Biz 70 il sovet ittifaqının tərkibində yaşamışdıq. Kim idi o zamanlar bizim tibbi sığorta məsələmizi düşünən. Bunun üçün zaman yetişməli idi. Müstəqilliyimiz qazanılmalı, biz müstəqil ölkəmizdə nə edəcəyimizə özümüz qərar verməli idik. Belə də oldu. Müstəqilliyimizi qazanıb əsarətdən xilas olduqdan sonra ölkəmizdə bütün sahələr sistemli şəkildə inkişaf etməyə başladı. Eləcə də səhiyyə sistemi. Yəqin xatırlayanlar olar, o zamanlar xəstəxanalardakı vəziyyəti. Köhnə, heç bir şəraiti olmayan binalarda fəaliyyət göstərən xəstəxanaların maddi-texniki bazası demək olar ki, sıradan çıxmışdı. Bütün ləvazimatlar, tibbi aparatlar, alətlər yararsız vəziyyətdə idi. Bu, hələ şəhərlərdə belə idi. Ucqar rayonlarda, onların kəndlərində isə vəziyyət daha da dözülməz idi. Kənd xəstəxanalarının demək olar ki, qapıları bağlı idi. Nə işə gələn, qapıların qıfılını açan, nə də bu xəstəxanalara üz tutan bir xəstə var idi. Şəraitsizlikdən ucqar kəndlərdə yaşayan insanlar günlərlə vaxt və xeyli vəsait xərcləməklə yaxınlıqdakı şəhər xəstəxanalarına üz tuturdular. İnsanlar olmazın çətinlikləri ilə üzləşməli olurdular. Xəstəxana şəraitində müalicə olunanlar şəhərlərdə belə rahatlıq tapa bilmirdilər. Çünki həmin xəstəxanalar da kənddəkilərdən çox fərqlənmirdi.

Belə bir şəraitdə təbii ki, tibbi sığorta barədə necə düşünmək olardı? Hansı ki, bəli, xarici dövlətlərdə bu, elə o illərdən vardı. Biz nə etməliydik? Birinci səhiyyə sistemində ciddi islahatlar aparmalı, onu müasir dövrün tələblərinə uyğunlaşdırmalı idik. Belə də oldu. Müstəqilliyimizdən ötən 30 ildə Azərbaycan səhiyyəsi özünün tarixində heç vaxt müşahidə olunmayan intibah dövrünü yaşadı. Nəinki paytaxt Bakıda, regionlarda yeni xəstəxana binalarının tikilməsi, ucqar kəndlərdə belə səhiyyə müəssisələrinin yaradılması, onların hər birinin maddi-texniki bazasının gücləndirilməsi və müasir tibbi cihaz və avadanlıqlarla təmin edilməsi icbari tibbi sığortanın tətbiqinə zamanla şərait yaratmış oldu.

Beləliklə də vətəndaşlarının sağlamlığı siyasi xəttində başlıca amil olan dövlətimiz icbari tibbi sığortanın tətbiqini gündəmə gətirdi və onun həyata keçirilməsi üçün lazımi tədbirləri həyata keçirməyə başladı. Bu gün ölkəmizin bütün regionlarındakı səhiyyə müəssisələrində icbari tibbi sığortanın həyata keçirilməsi üçün şərait var. Bu isə həmin sistemin tətbiqinə və insanların sağlamlığının mühafizə olunmasına imkan verir.

## Xidmətlər zərfi gündən-günə zənginləşir

İcbari tibbi sığortanın keyfiyyətini artıran səbəblərdən biri də onun əhaliyə təklif etdiyi xidmətlər paketidir. İcbari tibbi sığortanın maliyyələşməsinə əmək haqlarının müəyyən hissəsi ilə dəstək olan vətəndaşlar həmişə bir məsələ ilə bağlı gileyli olublar. Bu, icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olmayan tibbi xidmətlərlə bağlı olub. Lakin göründüyü kimi, xidmətlər zərfi də gündən-günə zənginləşdirilir. Nəzərə alsaq ki, icbari tibbi sığorta ölkəmizdə bir neçə ildir tətbiq olunur və cəmi 2-3 il ərzində xidmətlər paketindəki xidmətlərin sayı 2500-dən artıqdır, deməli, yaxın illərdə bu say daha da artacaqdır. Hazırda xidmətlər paketinə 35 adda ilkin tibbi-sanitariya yardımı, 6 adda təcili və təxirəsalınmaz tibbi xidmət, 508 adda ixtisaslaşdırılmış ambulator tibbi xidmət, 26 adda fizioterapiya xidməti, 731 adda laboratoriya xidməti, 39 adda invaziv radioloji xidmətlər (anqioqrafiya), 950 adda cərrahi xidmət, 255 adda stasionar terapevtik tibbi xidmət daxildir. Ürək əməliyyatları, qaraciyər və böyrək köçürmələri də xidmətlər paketinə daxil ediləcək. Həmçinin endoprotezləşdirmə əməliyyatları ilə bağlı illik limit 300-dən 1200-ə qaldırılacaq. İcbari tibbi sığorta vasitəsilə tibb müəssisəsinə gedən şəxs tibbi sığorta kartını təqdim etməklə həmin paketə daxil olan bütün xidmətləri pulsuz əldə edə bilir.

Bir məsələni də qeyd etməliyik ki, bəzən icbari tibbi sığorta üçün əmək haqqından ödədiyimiz vəsait üçün deyinirik. Lakin başa düşməliyik ki, bu ödənişlər həmin xidmətlərin sayını artıra bilər. Bu gün o müalicə və əməliyyatlara ehtiyacımız yoxdursa, bundan başqa insan faydalanırsa, sabah biz də faydalana bilərik. Çünki yuxarıda da vurğuladığım kimi, heç kim sağlamlığına təminat vermir. Gözləmədiyimiz anda hansısa bir xəstəlik qonağımız ola bilər. İcbari tibbi sığorta tək əmək haqlarından ödəmələr hesabına deyil, digər ödəmələr hesabına da maliyyələşir. Bununla belə bir nəticəyə gəlmək olar ki, vəsait nə qədər çox olarsa, xidmətlər zərfi də bir o qədər xidmətlər təklif edə bilər. Buna görə də sağlamlığımız naminə bu ödənişləri əsirgəməməliyik. Kiminsə həyatını qurtarmaqda, ona yaşamağı nəsib etməkdə əməyinin olmasını düşünmək doğrudan da qürurvericidir...

## İcbari tibbi sığortadan ehtiyacımız varsa, istifadə edək!

Dövlətimiz qısa zaman kəsiyində vətəndaşlarının sağlamlığı üçün yaratdığı bütün şəraitlə alqışalayiqdir. İnsanların əksəriyyəti bunu yüksək qiymətləndirir, onlara verilən dəyər kimi qəbul edir. Lakin çox təəssüflər olsun ki, aralarımızda elə insanlar da var ki, icbari tibbi sığortadan da məqsəd güdür, bundan da süni istifadə etməyə cəhd göstərirlər. Söhbətimizin bu anında region xəstəxanalarından birində qarşılaşdığım mənzərəni vurğulamağın lap yeridir: səhər-səhər xəstəxanaya getmişdim. Qapının ağzında xeyli adamla qarşılaşdım. Mən də onlar kimi dayanıb gözləməli oldum. Çünki qadınlar qapının ağzında dayanıb "növbə mənimdir",- deyə hamını xəbərdar etməyə çalışırdılar ki, yaxına gələn olmasın. Onların öz aralarında söhbəti əsnasında anladım ki, icbari tibbi sığorta ilə müayinəyə gəliblər. Bir azdan sonra qadınlardan birinin növbəsi çatmışdı. O, kənarda duran bir neçə nəfəri səslədi ki, gəlin, içəri keçirik. Özümü saxlaya bilmədim, qadına sual verdim ki, siz neçə nəfər müayinəyə gəlmisiniz? Cavab verdi ki, 7 nəfər. Dedim, Allah şəfa verdin, nə olub ki, hamınız birdən xəstələnmisiniz? Mənə tərs bir nəzər saldı və dedi ki, xəstəzad deyilik, gəlmişik özümüzü yoxladaq. Hamımız maaşımızdan pul ödəmişik, niyə özümüzü bir yoxlatmayaq ki...

Bir anlığa məəttəl qaldım. Düşündüm ki, gör bu insanlar nəyi fikirləşirlər. Heç bir xəstəliyin olmaya-olmaya xəstəxanaya gəlmək olar, bəli. Gələrsən, yoxlanarsan, lakin ödədiyin az miqdarda vəsait qarşılığında, həm də belə tez bir vaxtda durub ailə, qohum, tanışın birlikdə xəstəxanaya gəlməsi və qadının bunu xüsusi vurğu ilə qeyd etməsi heç də yerində olmadı.

İcbari tibbi sığortaya bu düşüncə ilə yanaşanlar da var. Lakin biz lazım olduğu hallarda bu tibbi xidmətdən istifadə edib, vəsaiti daha çox ehtiyacı olanlar üçün saxlamalıyıq. Elə xəstələr var ki, onlar bir saat belə gözləyə bilmirlər. Bu cür insanların isə yersiz şəkildə durub xəstəxanaya gəlmələri bağışlanmaz haldır. Düşünməliyik ki, icbari tibbi sığorta ölkəmizdə yeni tətbiq olunur. Biz hər birimiz onun inkişafına, xarici ölkələrdə görüb həsəd apardığımız səviyyəyə çatmasına töhfə verməliyik. Belə olarsa, zaman gəlib çıxacaq ki, biz istədiyimiz vaxt xəstəxanalara müayinəyə, müalicəyə gedə biləcəyik. Bu gün isə ən vacib şəhid ailələri, qazilərimiz və onların ailələri, aztəminatlı ailələr, bir də ki, gözləməsi həyatını itirməsi bahasına olacaq xəstələrimizdir...

**_Mətanət MƏMMƏDOVA_**

# Meymunçiçəyi həyəcan təbilini çalır!

*Azərbaycan meymunçiçəyinə qarşı test dəstlərini əldə edən ilk ölkələrdəndir*



COVID-19 pandemiyasının yaxın zamanlarda bitəcəyini düşünürdük. Hər gün yoluxma sayının azalması bizdə belə bir fikir yaradırdı. Gündəlik yoluxma rəqəmlərinin bir və iki rəqəmi arasında dəyişməsi, əlbəttə ki, pandemiyanın sonu olduğu deyil. Bu gün yoluxma sayının az olmasına baxmayaraq, ÜST COVID-19-un yeni variant və ştamlarını yaxından izləyir. Hazırda omikron ştamının da fərqli variantları üzə çıxır. Bu gün isə meymunçiçəyi xəstəliyi dünya ölkələrinin bir çoxunda baş qaldırıb. Avropada meymunçiçəyi virusuna yoluxanların sayı son iki həftədə üç dəfə artıb. Ümumilikdə dünyada 58 ölkədə 5322 virusa yoluxma və bir ölüm halı qeydə alınıb. Bu rəqəm və statistik göstəricilər artıq, həyacan təbilini çalır. Meymunçiçəyi virusuna yoluxanların 90 faizi Avropa regionunda qeydə alınıb. Yoluxma hallarının əksəriyyəti 21-40 yaş arasında olan insanlardır. Onların 99 faizi kişilərdir.

Azərbaycan ÜST-dən meymunçiçəyinə qarşı bu test dəstlərini əldə edən ilk ölkələrdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkə ofisi ehtiyac yarandıqda istifadə olunması üçün Azərbaycana 3000 meymunçiçəyi test dəsti təhvil verib. Bu vasitələr yoluxma hallarının aşkarlanmasına və xəstəliyin yayılmasının qarşısının alınmasına yönəlmiş ictimai səhiyyə səylərinin müəyyənləşdirilməsinə kömək edəcək. Erkən diaqnostika bu səyin mühüm hissəsidir.

## AZƏRBAYCANDA MEYMUNÇİÇƏYİ XƏSTƏLİYİNƏ YOLUXMA HALI MÜŞAHİDƏ OLUNMAYIB

Bu virus insanlarda və heyvanlarda meymunçiçəyi xəstəliyinə səbəb olan ikiqat zəncirli DNT virusudur. İlk dəfə meymunda aşkar edilib və 1970-ci ildən bəri 10 Afrika ölkəsində qeydə alınıb. Afrikadan kənarda xəstəliyin ilk yayılması halı 2003-cü ildə ABŞ-da olub. Avropada ilk təsdiqlənmiş yoluxma halı 2022-ci ilin may ayında qeydə alınıb. Mütəxəssislərin qənaətinə əsasən, təbii çiçək xəstəliyinə qarşı peyvənd edilmiş insanların meymunçiçəyi virusuna yoluxma ehtimalı müəyyən qədər azdır. Lakin dünya üzrə təbii çiçək xəstəliyinə qarşı peyvəndlənmənin 40 ildən artıqdır ki, dayandırılması bu yaşdan cavan olan insanların meymunçiçəyi xəstəliyinə həssas olmalarını əsaslandırır. Xəstədə gözdə ağrı və ya bulanma, təngnəfəslik, sinə ağrısı, nəfəs almaqda çətinlik, huşun pozulması, dezoriyentasiya, yuxululuq, qıcolmalar, qida qəbulunun əhəmiyyətli azalması, eləcə də uzun müddət davam edən qızdırma, arterial hipotenziya kimi hallardan hər hansı biri olarsa, gecikmədən mütəxəssisə müraciət olunmalıdır. Azərbaycanda hələ ki, meymunçiçəyi xəstəliyinə yoluxma halı müşahidə olunmayıb. Məlumdur ki, koronavirusun dünyada geniş vüsət aldığı bir zamanda Azərbaycanda tətbiq edilmiş karantin rejimi qaydalarına lazımı səviyyədə əməl olundu. Belə ki, maskadan lazımı, tələb olunan şəkildə istifadə edildi, sosial məsafə gözlənildi, qapanmalar tətbiq edildi, ictimai nəqliyyatdan istifadə zamanı bütün tələblərə riayət olundu və s. qabaqlayıcı tədbirlər Azərbaycanın bu sahədə nümunəvi ölkə olduğunu təsdiqlədi.

## VƏTƏNDAŞLARIN SAĞLAMLIĞININ QORUNMASINA XİDMƏT EDƏN BÜTÜN ZƏRURİ ADDIMLAR ATILDI

Əlbəttə ki, COVID-19-a yoluxma sayının azalması insanlarda arxayınlıq yaratmamalı və epidemioloji vəziyyət nəzarətdə saxlanılmalı, hər bir vətəndaş məsuliyyətli olmalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edərkən dövlətimizin başçısı Azərbaycanda COVID-19 ilə bağlı vəziyyətin çox yaxşı olduğunu, yoluxma sayının ən aşağı səviyyəyə düşdüyünü, vəziyyətin tam nəzarətdə saxlanıldığını, əksər məhdudiyyətlərin aradan qaldırıldığını və normal həyata qayıdıldığını qeyd edib. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizə aparılmasına dair dövlətimizin siyasətinin vətəndaşlar tərəfindən böyük etimadla qarşılandığını və əhalinin pandemiya ilə mübarizə qaydalarına riayət etməsini məmnunluqla bildirib.

Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 776 min 901, birinci mərhələ üzrə vurulan



peyvənd dozalarının ümumi sayı 5 milyon 358 min 266, ikinci mərhələ üzrə 4 milyon 854 min 859, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 313 min 744, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 250 min 32-dir.

İndiyədək ölkədə ümumilikdə 793 min 506 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 783 min 501 nəfər müalicə olunaraq sağalıb, 9 min 718 nəfər vəfat edib. Aktiv xəstə sayı 287 nəfərdir. COVID-19 pandemiyasının geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən zəruri qabaqlayıcı tədbirlər Azərbaycanda bu xəstəliyin geniş yayılmasının qarşısını almış oldu. Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi və təşəbbüskarlığı sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar reallaşdı. Pandemiya ilə mübarizə üçün zəruri infrastruktur yaradılması, bütün texniki-təşkilati məsələlər uğurla həllini tapmış oldu.

Odur ki, pandemiyanın tamamən bitmədiyini bilməliyik. Əllərin yuyulması, tənəffüs gigiyenası kimi öyrəndiyimiz bütün qoruyucu tədbirləri davam etdirməyimiz lazımdır.

***Zümrüd BAYRAMOVA***

# Rusiya-Qərb toqquşmasında maraqlar nədən ibarətdir?



"Rusiya və Qərb arasında qütbləşmənin dərin tarixi kökləri var və hətta SSRİ dövründə bu toqquşma formasiyaların mübarizəsinə çevrilmişdi. ABŞ da, Avropa İttifaqı da, Rusiya da nəhəng güclərdir və heç şübhəsiz ki, mübarizələrin kökündə siyasi və iqtisadi hegomonluq niyyəti dayanır. Hətta tarixin müəyyən dövrlərində bu qütbləşmənin açıq qarşıdurmaya da çevrildiyinin şahidi olmuşuq. Məsələn, Əfqanıstan, Suriya, Ukraynadakı müharibələri bu qəbildən misal göstərmək olar. Amma etiraf etməliyik ki, davam edən bu barışmaz ziddiyyətlərdən həmişə daha çox əziyyət çəkənlər tərəfsiz qalmaq istəyən, yaxud bu güclərin hər hansı birinin səfində yer tutan nisbətən kiçik dövlətlər olur". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, yenidən alovlanan qütbləşmə dövründə ən uğurlu mövqe tuta bilən dövlət Azərbaycan olub: "Prezident İlham Əliyevin şəxsi nüfuzu və çoxsaylı diplomatik gedişləri hesabına Azərbaycan bu savaşda nəinki təhlükəsiz bir mövqeyə çıxarmağa nail olub, üstəlik Azərbaycan qərblə Rusiya arasındakı rəqabəti



Cənubi Qafqazda sülh və sabitlik uğrunda rəqabət müstəvisinə çıxara bilib. Yəni, bu gün həm qərb, həm də Rusiya Azərbaycanın yaratdığı yeni reallıqda Azərbaycan və Ermənistan arasında yekun sülhün əldə olunmasında daha çox rola malik olmaq istəyir".

Deputat sözlərinə belə davam edib: "Digər tərəfdən, 44 günlük savaşdan sonra özümüz fikri he-



sablaşılan gücə çevrilmişik. Biz Avropa İttifaqı ilə kifayət qədər yüksək səviyyəli münasibət qurmuşuq, Böyük Britaniyanın əsaslı ticari tərəfdaşlarından biriyik, ABŞ-ın təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində qlobal müttəfiqlərindənik, Rusiya ilə bütün sahələri əhatələyən strateji müttəfiqlik müqaviləmiz mövcuddur.

Eyni zamanda Vətən müharibəsi bizim hərbi güc kimi imkanlarımızı dünyaya nümayiş etdirdi, üstəlik bu imkanla bərabər, həm də dünyanın çox ciddi hərbi güclərindən biri sayılan Türkiyə ilə Şuşa bəyannaməsinə əsasən güclərimizi birləşdirmişik. Yəni, Prezident İlham Əliyev çox mürəkkəb hərbi-siyasi və diplomatik kombinasiyalarla hazırkı həssas dönəmdə, qütbləşmə prosesində Azərbaycanın sağlam bir mövqedə qərarlaşmasına, təhdidlərdən kənar, müstəqil güc kimi inkişaf yoluna davam etməsinə nail olub. Ən doğrusu və idealı da budur. Çünki qütblərin savaşında sadəcə oyunçu dəyişilə bilər, mübarizə həmişə var və davam da edəcək".

***Ayşən Vəli***

SİYASİ RAKURS+AKTUAL

# "Armenianreport":

## "Rusiya ilə müttəfiq olmaq onunla düşmən olmaqdan təhlükəlidir"

**"Moskva İrəvana işarə edir ki, bizim ölkəmizdə nə isə "təsadüfən" partlaya bilər". SİA xəbər verir ki, bu haqda Ermənistanın "Armenianreport" saytı "Rusiya ilə müttəfiq olmaq onunla düşmən olmaqdan təhlükəlidir" başlıqlı yazısında qeyd edir. Erməni saytının analitik yazarı Qalust Qriqoryana görə, Ermənistan Avrasiya İqtisadi İttifaqına (Aİİ) və KTMT-yə daxildir. Bu baxımdan, erməni ictimaiyyəti Aİİ-də və KTMT daxilində baş verənlərdən narahat olmaya bilməz.**










**Ermənistan Rusiyanı düşmən elan etməyə hazırlaşır!**

Müəllif bu xüsusda son vaxtlar Rusiya və Qazaxıstan arasında yaranmış soyuq münasibətlərə eyham vurub və yazıb ki, bu ölkələrin mövcud münasibətləri geniş miqyaslı müharibəyə qədər inkişaf etmədi, lakin gərginliyin həddi yüksək nöqtəyə qədər çatıb. SİTAT: "Beləliklə, iyulun 6-da Qazaxıstandakı nəhəng Tenqiz neft yatağında partlayış baş verdi. Forbes-in məlumatına görə, orada hidravlik test aparılırdı və borulardan biri təzyiqə tab gətirə bilməyib. Nəticədə, partlayışda iki fəhlə həlak olub, daha üç nəfər isə yaralanıb, deyə yerli polis bildirib..."

### Erməni müəllif iddia edir ki, dünənki müttəfiqin bugünkü düşmənə çevrilməsi Rusiya üçün asan işdir

Qalust Qriqoryan buradan belə nəticə hasil edir ki, Qazaxıstanla Rusiya arasındakı gərginlik ölkə prezidenti Kasım-Jomart Tokayevin iyunun 17-də Rusiyanın prezidenti Putinlə birgə iştirak etdiyi konfransdan başlayıb. Tokayev Putinin iştirak etdiyi konfransda bəyan edib ki, o "DNR" və "LNR" adlı separatçı qurumların müstəqilliyini tanımaq fikrində deyil. SİTAT: "Biz hazırkı məqamda RF və QR arasında kəskin qarşıdurma müşahidə edirik və onlardan heç biri geri çəkilmək fikrində deyillər. Və hadisələrin belə sürətli inkişafı sübut edir ki, Aİİ-nin, hətta KTMT-nin saxlanılması perspektivləri çox dumanlı görünür".

Erməni müəllif iddia edir ki, dünənki müttəfiqin bugünkü düşmənə çevrilməsi Rusiya üçün asan işdir. Söz yox ki, Qalust Qriqoryan Qazaxıstanla Rusiya arasındakı gərginliyin bir ucunu məhz Ermənistana bağlamağa çalışıb. Daha dəqiq desək, 44 günlük müharibə ilə əlaqələndirməyə cəhdlər edib. Bu, əslində erməniçiliyin köhnə ənənələrindən biridir ki, özünə aid olmayan hər hansı bir məsələni öz problemlərinə calasın və bundan mənfəət güdsün.

### Erməni müəllif hələ də anlamır ki, onun ölkəsi vassaldır və daim nökər funksiyasını yerinə yetirib

Əbəs deyil ki, əlinə düşən bu imkandan maksimum yararlanmağa çalışan erməni müəllif Rusiyanı hədəfə almağa çalışır və bunun üçün ağlına gələn istənilən ittihamları önə sürür. Misal üçün, Rusiyanın Türkiyə ilə əlaqələrinə toxunur, "artsaxın" verildiyini sözün əsl mənasında ulayır, əlavə olaraq da bunu belə əlaqələndirir ki, həmin vaxtlar Rusiya Ukrayna ilə müharibəyə hazırlaşırmış və s...

"Armenianreport"un analitik yazarı Rusiyanın Kanadanın İrəvanda səfirlik açmasına qarşı da etirazlı bəyanat səsləndirməsinə toxunub və artıq belə bir halın yolverilməz olduğunu yazıb. Görünür, erməni müəllif hələ də anlamır ki, onun ölkəsi vassaldır və daim nökər funksiyasını yerinə yetirib. Bu baxımdan, Ermənistanın Qazaxıstanla, Türkiyə ilə və s. ölkələrlə əlaqələndirmək də doğru deyil.

### Yenidən Azərbaycanla "kəllə-kəlləyə" gəlməyə cəhd edən Ermənistan cəmi 1,5 il əvvəl başına gələn bəlalarını unutmamalıdır

Bəli, Qazaxıstan Rusiya ilə hər hansı gərginlik yaşaya bilər, amma bənzər gərginlik Ermənistanla yaşansaydı, bu ölkə cəmi bir neçə saatın içində yerlə-yeksan olardı. Yaxud, Türkiyə Rusiya ilə münasibətlərini qura bilər, amma buna qarşı dil uzadan Ermənistan unudur ki, cəmi bir neçə kmlik məsafədə yerləşən türk ordusu bir göz qırpımında onlara həyatın nə rəngdən ibarət olduğunu göstərə bilər.

Eləcə də yenidən Azərbaycanla "kəllə-kəlləyə" gəlməyə cəhd edən Ermənistan cəmi 1,5 il əvvəl başına gələn bəlalarını unutmamalıdır. Ermənistandakı Qalust Qriqoryan tipli analitik yazarlar isə ölkələrinin xilas olması yönündə baş sındırmaq yerinə özlərinə yeni düşmən axtarışına çıxıblar - bu dəfə Rusiya ilə (?!). Maraqlıdır və çox ilgincdir ki, görəsən Rusiya öz nökərinin birdən-birə belə buynuz çıxarmasına hansı münasibətini sərgiləyəcək? Bunu da yaxın zaman göstərəcək, mütləq göstərəcək. Xüsusilə, Ermənistanda "Rusiya ilə müttəfiq olmaq onunla düşmən olmaqdan təhlükəlidir" tipli yanaşma varsa, bunu gözləməyə dəyər...

***Rövşən RƏSULOV***



İLHAM

# Müxalifəti başa salmaq nədən çətindir?

Dünyanın hər yerində təbii fəlakətlər baş verir. Bu zaman insanlar baş verənləri sakit qarşılayıb, ağrılı paroblemlərin aradan qaldırılmasında dövlətə dəstək olmağa çalışırlar. Hakimiyyətə müxalif partiyalar da vəziyyətdən istifadə edərək, iqtidarı hədəfə almırlar. Yeni Azərbaycan müxalifəti kimi hay-küy salan, həyasızlıq edib, şivən qoparıb, şou yaratmağa cəhd edən də olmur. Bu barədə qlobal dünyanın nəzarətsiz zonası hesab olunan sosial şəbəkələrdə nə oxuyub, nə teleqram səhifələrində hansısa videoları izləmiş, nə də yutub kanallarında rast gəlməmişəm. Ancaq fakt budur ki, heç bir xalq, dövlət, bölgə təbii fəlakətlərdən sığortalanmayıb. Dəfələrlə dünyanın müxtəlif bölgələrində böyük dağıntılara, fəlakətlərə səbəb olan təbii hadisələr baş verib və bundan sonra da təbii fəlakətlərin olacağı şübhəsizdir. Qeyd etmək lazımdır ki, 2014-cü ildə ABŞ-ın Yeni İngiltərə ştatında baş vermiş qəza nəticəsində 650 min ev və biznes mərkəzi elektriksiz qalmışdı. Filippin, Malta və Misir kimi dövlətlərdə zaman-zaman elektrik kəsintisi saatlarla sürmüşdü. 2015-ci ilin yanvarında nüvə dövləti Pakistanın 80 faizi elektrikdən məhrum olmuşdu. Bu il isə Sudanda, ABŞ-da və Sinqapurda eyni məzmunlu fəlakətlər baş verib. Yaponiyada baş vermiş sunami nəticəsində, AES-in blokunun partlaması nəticəsində insanlar bu günə qədər hələ də əziyyət çəkirlər. Klivlenddə eynilə bizdəki kimi, isti keçən yay zamanı enerjiyə tələbatın kəskin artması nəticəsində, qızmış naqillərin vaxtında budanmayan ağaclara toxunması nəticəsində qısaqapanma baş vermişdi. Nəticədə, elektrik stansiyasını idarə edən kompüter şəbəkəsi çökmüş, Klivlend Elektrik Stansiyasının fəaliyyəti dayanmış və zəncirvari qaydada 100 digər stansiyanın da sıradan çıxmasına səbəb olmuşdu. Böyük şəhərlərdə, o cümlədən, Nyu-Yorkda metro dayanmış, mobil rabitədə problem yaranmışdı. ABŞ-da 40, Kanadada 10 milyondan çox insan işıqsız qalmış, dəyən ziyan 6 milyard dolları aşmışdı. 2003-cü ilin 18 avqustunda İnquri İES-də baş verən qəza nəticəsində bütün Gürcüstan işıqsız qalmışdı. Xəstəxanalardan tutmuş, metroya qədər hər yerdə böhran yaranmış, hətta mərkəzi televiziya qülləsi də yayımı dayandırmışdı. Həmin ilin 28 avqustunda London və Britaniyanın cənub-şərq rayonları elektriksiz qalmışdılar. Metro və tramvaylar dayanmış, küçə lampaları, işıqforlar söndüyü üçün şəhərdə nəqliyyat xaosu yaranmışdı. 250 min insanı metrodan evakuasiya etmək lazım gəlmişdi.

Yeni dünyanın müxtəlif bölgələrində yaranan təbii fəlakətlər nəticəsində dağıntılar, insan ölümləri baş verir, ancaq heç də həmin dövlətlərin hansısa müxalifət partiyasının nümayəndəsi və ya qəzet yazarı, blogeri hay-güy qaldırıb diqqəti özlərinə yönəldə biləcək hərəkətlərə yol vermirlər. Təəssüf ki, Azərbaycanın ağıldan dayaz, dildən söyüşkən, yanaşmalarında şər və böhtana üstünlük verən məxluqları ölkəmizdə baş verən istənilən xırda problemi qabardıb, ondan siyasi maraqları üçün istifadə etməyə çalışırlar. Bütün bunlar onu bir daha göstərir ki, dağıdıcı xislətli müxalifətin fəaliyyəti Azərbaycanın uğurlarına kölgə salmaqdan ibarətdir. Ancaq reallıq ondan ibarətdir ki, onların fəaliyyəti boş qazanı döyəcləməkdən başqa bir şey deyil. Çünki xalq-iqtidar birliyi möhkəm əsaslara söykənir və bu birliyi Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı kimi boşboğazların zədələməsi mümkünsüzdür.

# Ermənilərin “köhnə və yeni iradları”..?

## Vahan Kerobyanın özünü "İnstaqramın kralı" adlandıran məşhur poker oyunçusu, erməni Den Bilzeriandan gözləntiləri



**...Deyirəm, bunların yuxarıda yerləri yox, aşağını da bəyənmirlər. Beləliklə, erməni nəşrlərinin yazdığına görə, Türkiyə- Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələsi üzrə xüsusi nümayəndələr Ruben Rubinyan və Serdar Kılıçın Vyanada keçirilən dördüncü görüşündə konkret razılaşmalar əldə olunub. Belə ki, tərəflər müvafiq olaraq Ermənistan və Türkiyəyə səfər edən üçüncü ölkə vətəndaşlarının Ermənistan-Türkiyə quru sərhədini ən qısa müddətdə keçmək imkanını təmin etmək barədə razılığa gəliblər.**

Həmçinin iki ölkə arasında yüklərin birbaşa hava nəqliyyatı ilə daşınmasına tezliklə başlanması barədə razılıq əldə olunub və bu istiqamətdə lazımi proseslərin başlanması barədə qərar qəbul edilib və s. və ilaxır.

Əslində, etiraf edilməlidir ki, ilk ”ayaqaçdı üçün” elə də pis nəticə deyil. Amma, gəlin baxaq, bunlar erməniləri qane edirmi? Maraqlıdır, ”razılaşmanın” ayrı-ayrı bəndlərinə sırf özlərinəməxsus ”nırx” qoymağa çalışan ermənilərin, görən iddiaları nədir?

Məsələn, ermənilər iddia edirlər ki, burada sevindirici bir hal varsa, o da üçüncü ölkə vətəndaşları üçündür. Yəni burada Ermənistan vətəndaşlarını sevinəcək heç bir nəsnə yoxdur. Əslində, bəlkə də ”düz deyirlər”?

Çünki, Ermənistan-Türkiyə sərhədləri bağlı olanda belə Ermənistan vətəndaşları, öz ölkələrində acından ölməmək üçün min bir yolla da olsa, Türkiyə ərazisinə keçib ailələrini azuqə ilə təmin edirdilər. Deyim ki, bu əslində Türkiyə tərəfinin humanizmi kimi qəbul edilməlidir. Çünki Türkiyə tərəfi dəfələrlə ölkə ərazisindəki qeyri-qanuni erməni miqrantların sayı və miqdarı barədə məlumatlı olduğunu etiraf etsə də, onların acınacaqlı vəziyyətini də gözə alırdı...

Yeri gəlmişkən, burada başqa bir məqama diqqət çəkmək yerinə düşər. Məsələn, ermənilər üçüncü ölkə vətəndaşları üçün yaranmış yeni logistik imkanların Ermənistanın tranzit potensialını artırmaqla yanaşı, müvafiq olaraq ermənilərə əlavə gəlir gətirəcəyini...gizlətmirlər, əksinə etiraf edirlər.

Amma bunu da elə etiraf edirlər ki, sanki Türkiyə bütün bunları ermənilər üçün etməkdə borclu imiş. Hələ bir qonşu dövləti ”...on illərdir Ermənistana qarşı nəqliyyat blokadası həyata keçirməkdə” ”ittiham” edirlər.

Erməni təxəyyülünə görə, guya beynəlxalq hüquqa görə bu, təcavüz aktıdır. ”İndi isə əslində, otuz illik təcavüzü davam etdirən Türkiyə blokadada kiçik bir pəncərə, daha doğrusu, pəncərə açmağa razılaşır. Və hətta yalnız üçüncü ölkələrin vətəndaşları üçün...”. Bunu ermənilər deyir. Qeyd edək ki, burada ermənilərin dediklərinə şərh verməyə belə lüzum görünmür.

...Gəlin ”erməni iradı” ilə bağlı başqa bir məqama diqqət yetirək. Deməli, ermənilər iddia edirlər ki, Ermənistan Türkiyə məhsullarını idxal edir, amma Türkiyənin özünə praktiki olaraq heç nə ixrac etmir. Onlar burada hətta statistik göstərici də təqdim edib deyirlər ki, məsələn, müharibədən əvvəlki 2019-cu ildə Ermənistan Respublikası Türkiyəyə 2,2 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib, amma Türkiyə ermənilərə 268 milyon dollardan artıq məhsul satıb.

...Burada haşiyə çıxaraq qeyd edim ki, bir müddət bundan əvvəl Ermənistanda satılan türk mallarının satışına qarşı boykot kampaniyası təşkil ediləndə nəinki yerli erməni iş adamları, hətta ölkənin iqtisadiyyat naziri Vahan Kerobyan da buna etiraz etmişdilər.

Onlar gizli yolla da olsa ölkəyə gətirilib İrəvan bazarlarında satılan türk mallarının keyfiyyəyinə görə, həm yerli, həm də Rusiya və Çindən gətirilən malları üstələdiyini etiraf etmək məcburiyyətində qalmışdılar. Məhz buna görədə bəzi erməni səlahiyyətlilərinin türk mallarına qarşı təşkil etdikləri boykot sonradan iflasa uğradı. Amma, deyəsən, ermənilər bunu ”unudublar”?

Çünki, onlar yenidən sərhədin açılmasını ”...Türkiyə blokadanı götürmədən, işğalçılıq siyasətindən əl çəkmədən Ermənistanı öz malları ilə doldurmaq üçün əlavə fürsət əldə edir” kimi təqdin edirlər. Qeyd edilməlidir ki, türklərin ermənilərə təklif etdikləri bütün optimal variantlara baxmayaraq, onlar ”əsas problemlər”in hələ də həllini tapmadıöını iddia edirlər.

Maraqlıdır, görən ”əsas problemlər” adlandıqdıqları ”problem” nəmənədir belə? Əslinə aqlsa, heç nə, sadəcə erməni olmaları...

..Hə, yadımdaykən, onu da deyim. Deməli, ermənilərin bu məsələdə ”iradlarından” biri də ”yüklərin birbaşa hava nəqliyyatı ilə daşınması” ilə bağlıdır. Məsələn, onlar deyirlər ki, türklərdə təyyarələr var deyə, onlar problemsiz yüklərini daşıyacaqlar, bəs, belə olan halda yük təyyarələri olmayan biri kimi, biz neyləyəcəyik..?

P.S. Ötən gecə ermənilərin iqtisadiyyat naziri Vahan Kerobyan özünü ”İnstaqramın kralı” adlandıran məşhur poker oyunçusu, erməni Den Bilzerianla görüşüb.

”Bu gün mən Den Bilzerian və onun həmkarları ilə Ermənistanda məhsuldar investisiyaların yatırılması imkanlarını müzakirə etmək üçün görüşdüm”, - nazir özünün ”Facebook” səhifəsində bildirib. Təbii ki, başadüşülməndir. Çünki erməni ələbaxan bir millət kimi həmişə poker oyunçuları kimilərin göndərdiyi ianələr hesabına ayaqda durub.

***Ağasəf Babayev***



Elçin Bayramlı

# Sonun başlanğıcı

**”Biz ətrafımızı o qədər dəyişmişik ki, indi orada mövcud olmaq üçün özümüzü kökündən dəyişməliyik ” Viner Norbert (ABŞ riyaziyyatçısı, ”kibernetikanın atası”)**

Qlobal istiləşmə şəraitində Arktika və Antarktidakı, həmçinin Qrenlandiyadakı buzlaqların əriməsi sürətlənib. Artıq buz təbəqəsindəki əriмənin qarşısını almaq mümkün deyil. Son 20-30 ildə bu ərimə daha da sürətlənib və buz təbəqələri çox böyük ölçülərdə yoxa çıxıb. Hətta təxminən 10 il qabaq BMT baş katibi Arktikanın əriməsini öz gözləri ilə görmək üçün gəmi ilə şimal qütbünədək getdi. Əvvəllər buz təbəqəsindən atom buzqıran gəmilərlə belə yaxınlaşmağın mümkün olmadığı yerlərə adi gəmi ilə rahatca gedib gəldi.

Son bir neçə min ildə bircə dərəcə belə istiləşməyən planetimizin orta temperaturu son 1 əsrdə 3 dərəcə artıb ki, bu da faktiki fəlakət siqnalıdır. Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı temperatur qeydə alınıb. Sibirdə temperatur 40 dərəcəyə çatıb. Son elmi məlumatlar əriмənin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi. Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıracaq, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz.

Daha açıq desək, bunlar nəhəng qlobal kataklizmlərin başlayacağını göstərən əlamətdir. Dağlarda buzlaqların əriməsi isə tezliklə qlobal içməli su böhranı yaradacaq və hətta su müharibələrinin baş verəcəyi ehtimal olunur. Konkret olaraq bu proses antropogen təsirlərin, yəni birbaşa insan fəaliyyətinin nəticəsidir. Baxmayaraq ki, iri sənaye oliqarxlarının oyuncaq ”elmi” mərkəzləri diqqəti problemin əsas səbəbindən yayındırmaq üçün bəşəriyyətə nağıl danışırlar. Guya ki, bu vəziyyət Günəşdə gedən hansısa proseslər, nə bilim, kosmosda baş verən hansı proseslərin təsiri ilə imiş. Halbuki elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

Burada yeganə təqsirkar insanların özləridir. Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak qudurğanlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, bütün canlı üçün biz insanlar əlimizdən gələn hər şeyi edirik.

### Elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır

Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Bəzi nüfuzlu alimlərin fikrincə, artıq planetimizi, canlı aləmi xilas etmək, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilib.

Ekoloq alimlər artıq planetimizdəki ekoloji proseslərin qarşısıalınmaz, geridönməz formaya keçdiyini etiraf ediblər. Yəni biz ,necə deyərlər, ”bir balaca” gecikmişik. BMT-də dünya dövlətlərinin nümayəndələri müzakirə apardılar ki, qlobal istləşmənin sürətini azaltmaq üçün istehsal və atomosferə tullantılarının həcmi azaldılsın.

Hətta maksimum tədbirlər belə ümumi orta temperaturun artımını 3 dərəcədən aşağı salmağa qadir deyil. Halbuki dövlətlər minimum azalmanı belə qəbul etmək istəmirlər. Bunun üçün Kioto protokoluna baxmaq kifayətdir. İri dövlətlər protokola qoşulmamaqla göstərdilər ki, onlar planetimizin xilasında yox, özlərinin müvəqqəti nüfuz və üstünlüyündə maraqlıdırlar. Kasıb ölkələr isə deyirlər ki, biz də sizin kimi yaşamaq istəyirik, ona görə də sənayeni azalda bilmərik.

Misal üçün, ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq. Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq. Artıq sonun başlanğıcındayıq...

# “Nar” əyləncə dolu yay kampaniyasına start verir

**Əyləncə dolu bir yay keçirmək istəyənlər üçün ”Nar” maraqlı fəaliyyətlərlə dolu yay kampaniyasına başlayır. Paytaxt Bakı və bölgələrdə keçiriləcək kampaniyada iştirak edənlər maraqlı oyunlara qatılaraq əylənəcək və ”Nar”dan hədiyyələr qazana biləcək.**

Bundan başqa, mobil operatorunsosial media səhifələrində keçiriləcək müsabiqələrdə iştirak etməklə ”Nar”dan dəyərli hədiyyələr, ən əsası, iki nəfərlik səyahət paketi qazanmaq şansı da əldə edirsiniz.




”Nar”ın sürpriz və yeniliklərinisosial mediada kampaniyanın rəsmi simaları İradə Qədirova (Instagram: irada_gadirova), Samirə Əfəndi (Instagram:efendi_music) və Cəfər Nəcəfov (Instagram: jafarnajafov)paylaşacaqlar.

Kampaniyanın ən böyük və əyləncəli sürprizi isə yayın sonunda olacaq. Səbrsizliklə gözlənilən o gün barədə xəbərləri ”Nar”ın rəsmi hesablarından, kampaniyanın rəsmi simalarından və #TamHazıram həştəqini izləməklə əldə edə bilərsiniz. Kampaniya videolarını izləmək üçünsə bu linkə daxil olun.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

# Rusiyalı politoloq: "Azərbaycan Ermənistana blokadada qalmamaq şansı verir"

## Sergey Markov: Azərbaycan daha güclüdür və Ermənistan yenə də onunla razılaşmalı olacaq



Ermənistanda baş nazir Nikol Paşinyan "Qarabağ klanı"nın ardıcıl "təmizlənməsini" davam etdirir. İyulun 1-də Ermənistan hökumətinin başçısının parlamentdə çoxluğu təşkil edən hakim "Vətəndaş sazişi" fraksiyası müxalifət lideri İşxan Saqatelyanın deputat mandatını saxlamaqla, parlamentin vitse-spikeri vəzifəsindən uzaqlaşdırılmasına səs verib.

"Vətəndaş sazişi"nə diplomatik şəkildə bildirilirdi ki, indi müxalifət üç gün ərzində vitse-spiker postuna öz yeni namizədini irəli sürə bilər, lakin irəli sürülmüş namizədi yaxşıca bloklaya biləcəklərini də qeyd edilməmişdi. Bundan sonra İşxan Saqatelyanın özü müxalifətin vitse-spiker vəzifəsinə heç bir yeni namizəd irəli sürməyəcəyini bildirib və müxalifət deputatlarının parlamentdəki vəzifə və mandatlarından imtina etdiyini açıqlayıb.

Ermənistanda və regionda baş verən hadisələri nüfuzlu rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov Moskva-Baku portalına müsahibəsində şərh edib. Müsahibəni oxucularımıza təqim edirik.

***-Sergey Aleksandroviç, biz xatırlayırıq ki, yazda Paşinyan öz adamının Ermənistan prezidenti olmasına necə nail oldu. Belə çıxır ki, indi parlamentdə baş verənlər müxalifətin, "Qarabağ klanı"nın itkisidir.***

- Təbii ki, baş verənləri Paşinyanın növbəti qələbəsi adlandırmaq olar. O, vaxtaşırı müxalifəti sakitcə darmadağın edir. Onun çox balanslı strategiyası var, deyərdim ki, səriştəli, dəqiq işi var. Açığı, onunla siyasi texnoloqlar işləyir. Amma bundan başqa, Paşinyana müxalifətlə mübarizədə uğur qazanmağa imkan verən əsas əsaslar var.

Birincisi: Paşinyan hakimiyyətdə olduğu illər ərzində real hakimiyyətini bərqərar edə bildi- o, nominal dövlət başçısı deyil, bütün strukturları özünə tabe etdirib, keçmiş hakimiyyətin nümayəndələrini ardıcıl olaraq oradan təmizləyib. İkincisi, o, bu gün ona heç bir alternativ görməyən əhalinin əksəriyyətinin dəstəyinə malikdir. Əhali müxalifəti dəstəkləmir, çünki onlar başa düşürlər ki, hakimiyyətə qisasçı partiya gəlsə, yeni müharibə başlayacaq. Uşaqlarının ölməsini istəmirlər. İnsanlar anlayır ki, Ermənistan yeni məğlubiyyətə uğrayacaq. Bundan başqa, əhali 20 ilə yaxındır hakimiyyətdə olan "Qarabağ klanı"ndan, Robert Köçəryan, Serj Sarkisyandan bezib. Prinsipcə, onlar hakimiyyət illərində heç bir nailiyyətlə öyünə bilməzlər, ölkəni, əhalini çıxılmaz vəziyyətə salan, onu regional əməkdaşlığa bağlayan millətçilik ideyasından başqa, verə biləcəkləri heç nə yoxdur. Onlar qətiyyən əhalinin həyatını yaxşılaşdıra bilmədilər. Bu şəraitdə Ermənistan cəmiyyəti bu gün ya Paşinyanı dəstəkləməyi, ya da neytral mövqe tutmağı daha optimal hesab edir. Bunlar Ermənistanın baş nazirinə siyasi üstünlüyünü rəsmiləşdirməyə imkan verən əsas səbəblərdir.



Bir müddət əvvəl Paşinyan "Qarabağ klanı"nın təmizlənməsinin davamı olaraq öz prezidentini təyin edə bildi. Yəni o, hər yerdə klanı, revanşistləri, keçmiş hakimiyyətin nümayəndələrini təmizlədi və bununla da özünü gücləndirdi. Onun xüsusi xidmət orqanlarına, Müdafiə Nazirliyinə öz adamlarını qoyması çox vacibdir. Yadınızdadırsa, güc strukturları - Milli Təhlükəsizlik Xidməti, Müdafiə Nazirliyi arasında narazılıq dövrləri olub.

***- Təsəvvür edək ki, bütün müxalifət deputatları mandatlarından imtina edirlər. Nə olacaq?***

- Görünür, müxalifət öz qarşısına belə bir vəzifə qoyub. Amma bütün müxalifət deputatları mandatlarından imtina etsələr də, heç nə baş verməyəcək, heç bir böhrana səbəb olmayacaq. Və buna görə də müxalifət üçün müsbət nəticə yoxdur. İstənilən növbədənkənar seçkilər istənilən halda yenidən Paşinyan fraksiyasının qələbəsini qeyd edəcək.

Saqatelyan vəzifəsindən uzaqlaşdırılmamışdan əvvəl də mandatdan imtina etməyə başladılar, görünür, indi yeni taktika kimi bunu kütləvi şəkildə etmək qərarına gəliblər. Amma müxalifətin bütün bu və ya digər cəhdləri yalnız onun zəifliyini göstərir. O, hələ də heç nə əldə etmir. Əhali bununla öz gələcəyini görmür.

***- Müxalifət ənənəvi olaraq müxtəlif beynəlxalq oyunçulara iddialarla çıxış edir. Bu gün Avropa İttifaqının diplomatik missiyasında, deyək ki, Avropa İttifaqının Paşinyanı dəstəklədiyi iddiası ilə növbəti piket keçirildi. Onun dövlət başçısı olduğunu nəzərə alsaq, kifayət qədər qəribə iddiadır.***

- Ən müxtəlif strukturlara müraciət etmək, müxtəlif ideyaları, təklifləri səpələmək- başqa heç nəyin işləmədiyi, heç bir strategiyanın işləmədiyi şəraitdə bu, tamamilə normal, tipik bir taktikadır. Ona görə də müxalifət qüvvələri müxtəlif variantları sınamağa məcburdur. Burada cəhd edin, orada cəhd edin. O tərəfə, o tərəfə. Ancaq çağırdıqları şəxslər- beynəlxalq oyunçular- tərəfindən heç bir reaksiya yoxdur. Buna uyğun olaraq müxalifətin hərəkətləri onun zəifliyini göstərir.

***- Bu gün yeni beynəlxalq reallıqlar kontekstində yeni təchizat zəncirlərinin qurulması mövzusunun son dərəcə aktuallaşdığı göz qabağındadır. Ona görə də, görünür, Rusiya son aylar Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılmasının vacibliyindən, o cümlədən sonuncu Xəzər sammitində belə fəal danışır. Və burada Zəngəzur dəhlizi mövzusu özözünə əlavə olunur. Görünür, Putinlə Əliyev bunu Aşqabad sammiti çərçivəsində müzakirə ediblər. Nəhayət, hər iki dəhliz belə bir ümumi regional şəbəkə yarada bilər. Azərbaycanın xarici işlər naziri Tehranda bəyan edib ki, Şimal-Cənub dəhlizi ilə bağlı artıq İranla razılaşma var.***

- Məncə, Putinlə Əliyev Aşqabadda Zəngəzur dəhlizini müzakirə ediblər. Bu məsələdə, məlum olduğu kimi, Bakı ilə İrəvanın mövqeləri fərqlidir. Azərbaycan dəhliz məntiqində israr edir, Ermənistan bunu inkar edir. Ümumiyyətlə, burada təməl daşı dəhlizin təhlükəsizliyi, yüklərin daşınması məsələsidir. Azərbaycan və Türkiyə nöqteyi-nəzərindən təhlükəsizlik ondan ibarətdir ki, dəhlizlə gedən mal və nəqliyyat vasitələri Ermənistandan asılı olmasın. İrəvan isə təkid edir ki, Zəngəzur dəhlizində erməni postları olmalıdır və orada yükün yoxlanmasına Ermənistan tərəfi nəzarət edəcək. Bakı bildirir ki, bu halda Laçın dəhlizinin işi eyni analogiya üzrə qurulacaq və orada Azərbaycan nəzarət postları olacaq. Qarşılıqlı inamsızlıq kompromis axtarışını çətinləşdirir.

İlham Əliyev deyib ki, Zəngəzur dəhlizi olmasa, Azərbaycanla Ermənistan arasında normallaşma olmayacaq. Məsələnin bu cür formalaşdırılması Azərbaycanın prioritetlərini əks etdirir. Azərbaycan üçün 3 əsas məqam var- Qarabağın hələ də Bakının nəzarətində olmayan hissəsinin demilitarizasiyası, sərhədin delimitasiyası və demarkasiyası, Zəngəzur dəhlizi. Ermənistanın güzəştə getməsi kifayət qədər çətindir. Amma Azərbaycan daha güclüdür və Ermənistan yenə də onunla razılaşmalı olacaq.



Zəngəzur dəhlizi Rusiya üçün də böyük müsbət əhəmiyyət kəsb edir, çünki Rusiya Federasiyasının mühüm tərəfdaşlarından biri olan Türkiyə ilə dəmir yolu və avtomobil əlaqəsini artıracaq. Bu halda böyük həcmdə yük Türkiyədən Rusiyaya və geriyə Azərbaycan, Dağıstan vasitəsilə bütün Rusiyaya gedə biləcək. Hətta sadə vətəndaşlar baxımından belə bir dəhlizin açılması Rusiya üçün müsbətdir, mən inanıram ki, quru yolu ilə Türkiyəyə istirahətə getmək mümkün olacaq.

Şimal-Cənub nəqliyyat dəhlizinə gəlincə, doğrudan da, görünür, dəhlizin İranın başa çatdırmadığı və tikintisi uzun illər müzakirə olunan qalan hissəsinin də qısa müddətdə tamamlanacağı razılaşdırılıb. İstər "Şimal-Cənub", istərsə də Zəngəzur dəhlizi həqiqətən də gələcəkdə regionda vahid nəqliyyat şəbəkəsinə çevriləcək. Rusiya və Şimali Avropanın indi dəhliz boyu necə qarşılıqlı əlaqədə olacağı tam aydın deyil, lakin istənilən halda burada Hindistanın rolu yenilənəcək.

***- Bir neçə ay əvvəl Azərbaycan və İran Azərbaycan Respublikasının əsas hissəsindən onun Naxçıvanın hissəsinə İran ərazisindən keçən nəqliyyat marşrutunun yaradılması barədə razılığa gəliblər. Bu, Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi baxımından nə deməkdir, bu nəqliyyat marşrutu alternativ ola bilərmi?***

- Xüsusilə Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında üçtərəfli saziş qüvvədə olduğu üçün Azərbaycan Zəngəzur dəhlizindən imtina etmək niyyətində deyil. Amma Azərbaycanla onun bir hissəsi- Naxçıvan Muxtar Respublikası arasında İran ərazisindən keçən yola gəlincə, bu yol çəkilsə, Zəngəzur dəhlizinə real alternativ olacaq. Faktiki olaraq Bakı və Moskva Ermənistana Zəngəzur dəhlizi vasitəsilə əməkdaşlıq təklif edir, onun blokadadan çıxarılması ilk növbədə özünə sərf edir. Bakı ilə Tehran arasında alternativ yolun tikintisinə dair razılaşmada isə belə bir siqnal var- Ermənistan israr etməkdə davam edərsə və Zəngəzur dəhlizinin tikintisinə tam icazə verməsə, o zaman o, sadəcə olaraq İran ərazisindən keçəcək. Mənim nöqteyi-nəzərimdən bu yol tamamilə tam hüquqlu alternativə çevrilə bilər. Və Zəngəzur dəhlizi, bu ən mühüm magistral Ermənistan ərazisindən çəkilməsə, Ermənistanın özü yenidən blokadada qalacaq. Yenə uduzacaq, məğlub olacaq.

Yeri gəlmişkən, Türkiyə Ermənistanla münasibətləri normallaşdırmaqda hələ də İrəvanın Ermənistan-Azərbaycan nizamlanmasına dair razılaşmaları yerinə yetirməsini rəhbər tutur.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

# “Bavariya” bu futbolçuya 12 milyon avro maaş təklif etdi



”Bavariya” ”Yuventus”un futbolçusu Matteyis de Liqt ilə danışıqlar aparır. Qol.az xəbər verir ki, bu barədə Almaniya mətbuatı məlumat yayıb. Tərəflər şəxsi müqavilənin şərtlərini müzakirə edirlər. Bildirilir ki, Münhen təmsilçisi 22 yaşlı müdafiəçiyə illik 12 milyon avro maaş təklif edib.

”Yuventus” futbolçunu 90-100 milyon avroya satmaq istəyir. ”Bavariya isə 75 milyon avro + bonus ödəməyə hazırdır.

Xatırladaq ki, De Liqt 2019-cu ilin yayında ”Ayaks”dan ”Yuventus”a 75 milyon avro qarşılığında transfer olunub. O, geridə qalan mövsüm ”Yuventus”un heyətində bütün turnirlərdə 42 oyunda 3 qol vurub və 1 qolun ötürməsini verib. Niderlandlı futbolçunun ”Yuventus”la müqaviləsi 2024-cü ilin yayına qədərdir.

# Qəti XƏBƏRDARLIQ: cipslər bu dəhşətli xəstəliklərə yol açır!

**Satışda və reklamlarda nümayiş olunan məhsulları almağa və dadmağa həmişə böyük maraq olur. Uşaqlar və böyüklər arasında cipsə olan maraq böyükdür və əksəriyyət onu sevir. Təəssüf ki, onun zərərləri haqqında da xeyli məlumatlar var. Uşaqların ən sevimli təamlarından biri olan cips dünyada ən çox satılan qida məhsullarından sayılır. Onun sağlamlığa ziyanlı təsirləri ilə əlaqədar müxtəlif fikirlər mövcuddur.**

Cipslərin yeganə cazibəsi nişasta və bir çox digər maddələrin uğurlu birləşməsinin köməyi ilə əldə olunan ləzzətli və xoş daddır. Cips hazırlanarkən istifadə edilən tərəvəzin bütün vitaminləri və faydalı komponentləri məhv olur. Ona görə də mütəxəssislər həmin məhsulun ev şəraitində təbii və möhkəm kartofdan hazırlanmasını tövsiyə edirlər.

Həkim-terapevt Yeganə Cəfərova AZƏRTAC-a açıqlamasında bildirib ki, cipslər konservantdır, uzun müddət saxlanılması və xarab olmaması üçün onların tərkibinə xüsusi qatqılar əlavə olunur: ”Həmin yağlar qaraciyər, mədəaltı vəz, mədə-bağırsaq traktında müəyyən xəstəliklərə səbəb olur. Uşaqların qida rasionunda cipslərə mümkün qədər yer verilməməlidir, çünki onun qəbulu uşaqların piylənməsinə aparıb çıxara, gələcəkdə şəkərli diabet, ürək-damar xəstəliyi və yüksək xolesterinlə nəticələnə bilər. Eyni zamanda yüksək temperaturda bişirildiyinə görə onun içərisində insan sağlamlığı üçün böyük təhlükəyə çevrilən maddə əmələ gəlir”.



# Millimizin dünya çempionatındakı rəqibləri açıqlandı

Futzal üzrə DÇ-2024-ün Avropa zonası üzrə əsas seçmə mərhələsinin püşkatma mərasimi keçirilib. Beləki, İsveçrənin Nyon şəhərindəki tədbirdə Azərbaycan millisinin də rəqiblərinin adına aydınlıq gəlib Joze Alesio Da Silvanın başçılıq etdiyi komanda 6-cı qrupda yer alıb. Millimiz Polşa və Yunanıstanla mübarizə aparacaq.

Seçmə mərhələnin matçları bu il 12-21 sentyabr, 3-12 oktyabr, 6-9 noyabr və 2023-cü il 27 fevral-8 mart tarixlərində oynanılacaq.




# Yol qəzaları 4 can aldı...

Ötən gün avtomobil yollarında ölümlə nəticələnən 2 yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən bildirilib. Qeyd olunub ki, nəticədə 4 nəfər ölüb. Bakı-Quba yolunun Şabran rayonu ərazisindən keçən hissəsində dəhşətli qəza baş verib. Qəza nəticəsində 3 nəfər həlak olub.

Bunlar 1986-cı il təvəllüdlü Məmmədov Aydın Əlif oğlu, 1957-ci il təvəllüdlü Səlimov Nadim Məhəmməd oğlu və 1967-ci il təvəllüdlü Səlimova Zülfət Seyfulla qızıdır. Qəza nəticəsində həlak olan hər iki kişi avtomobillərin sürücüləri olub.

# Mağaza sahibi olan qadın balta ilə öldürüldü

**İyulun 6-ı saat 22 radələrində Yardımlı rayonu, Ostair kənd sakini 1962-ci il təvəllüdlü Gülxar Məmmədovanın yaşadığı evin həyətyanı sahəsində yerləşən ərzaq mağazasında üzərində qətl əlamətləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Yardımlı rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, aparılmış araşdırmalarla zərərçəkmişin həmkəndlisi, 1985-ci il təvəllüdlü Firqət Məstiyevin qeyd edilən tarixdə Gülxar Məmmədovaya məxsus ərzaq mağazasına daxil olub əlindəki balta ilə sonuncunun baş və boyun nahiyələrinə xəsarətlər yetirərək onu öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Yardımlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Firqət Məstiyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**